Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# MİR CƏLAL

(Paşayev Mir Cəlal Əli oğlu)

***Biblioqrafiya***

**BAKI–2018**

**KBT** Я19:Ш+Ш5 (2=Аз) 7-4.4я1
**UOT** 016:821.512.162

**Layihənin rəhbəri:** **Əbülfəs Qarayev,**
*Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri, fəlsəfə üzrə fəlsəfə doktoru*

**Tərtib edənlər:** **Mədinə Vəliyeva**
**Mətanət İbrahimova**

**Elmi redaktor və buraxılışına məsul:** **Kərim Tahirov,**
*professor, Əməkdar mədəniyyət işçisi*

**Məsləhətçi:** **Şəmsəddin Axundov,**
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Gülbəniz Səfərəliyeva,**
*Əməkdar mədəniyyət işçisi*

**Mir Cəlal** (Paşayev Mir Cəlal Əli oğlu): biblioqrafiya /tərt. ed.: M.Vəliyeva, M.İbrahimova; layih. rəhb. Ə.Qarayev; elmi red. K.Tahirov; məsl. Ş.Axundov; red. G.Səfərəliyeva.- Bakı, 2018.- 496 s.

Azərbaycan Milli Kitabxanasının “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından tərtib etdiyi “Mir Cəlal” biblioqrafiyası Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycanın Əməkdar elm xadimi, yazıçı-alim, ədəbiyyatşünas, professor Mir Cəlal Paşayevin anadan olmasının 110 illiyinə həsr edilmişdir. Biblioqrafiyada görkəmli yazıçının həyat və yaradıcılığına aid zəngin material, habelə onun dünyanın ən zəngin kitabxanalarında mühafizə olunan nəşrləri öz əksini tapmışdır.

ISBN 978 9952 476 49 1

**© M.F.Axundov adına Milli Kitabxana, 2018**

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Выдающиеся деятели Азербайджана*

# МИР ДЖАЛАЛ

(Пашаев Мир Джалал Али оглы)

***Библиография***

**БАКУ–2018**

**Руководитель проекта:** **Абульфас Караев,**
*Министр Культуры и Туризма Азербайджанской Республики, доктор философии по философии*

**Составители:** **Медина Велиева**
**Матанет Ибрагимова**

**Научный редактор и ответств. за выпуск:** **Керим Тахиров,**
*профессор,*
*Заслуженный работник культуры*

**Консультант:** **Шамсаддин Ахундов,**
*Заслуженный работник культуры*

**Редактор:** **Гюльбяниз Сафаралиева,**
*Заслуженный работник культуры*

**Мир Джалал Пашаев** (Пашаев Мир Джалал Али оглы): библиография /сост.: М.Велиева, М.Ибрагимова; руков. проекта А.Караев; науч. ред. К.Тахиров; консульт. Ш.Ахундов; ред. Г.Сафаралиева.- Баку, 2018.- 496 s.

Очередной библиографический указатель из серии «Выдающиеся деятели Азербайджана» издан Азербайджанской Национальной Библиотекой и посвящен 110-летию со дня рождения великого ученого-педагога, заслуженного деятеля науки, профессора, замечательного прозаика Мир Джалал Пашаева. В библиографии отражены ценные материалы о жизни и творчестве писателя, а также издания его произведений, хранящихся в крупнейших мировых библиотеках.

**©Национальная Библиотека Азербайджана им. М.Ф.Ахундова, 2018**

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Milli Kitabxanası

*Remarkable people of Azerbaijan*

# MIR JALAL

(Pashayev Mir Jalal Ali oglu)

*Bibliography*

**BAKU–2018**

**Project manager:** **Abulfas Garayev,**
*Minister Of Culture And Tourism of the Republic of Azerbaijan, Ph.D in philosophy*

**Compiled by:** **Medina Veliyeva,**
**Matanat Ibragimova**

**Scientific editor:** **Karim Tahirov,**
*professor,*
*Honored cultural worker*

**Consultant:** **Shamsaddin Akhundov,**
*Honored cultural worker*

**Editor:** **Gulbaniz Safaraliyeva,**
*Honored cultural worker*

**Mir Jalal Pashayev:** (Pashayev Mir Jalal Ali oglu): bibliography /compiled by: M.Veliyeva, M.Ibragimova; project manager A.Garayev; scientific editor K.Tahirov; consultant Sh.Akhundov; editor G.Safaraliyeva.- Baku, 2018. - 496 p.

"Mir Jalal" bibliography, compiled by Azerbaijan National Library from the series of "Eminent personalities of Azerbaijan" is dedicated to the 110$^{th}$ anniversary of the birth of Mir Jalal Pasahayev, one of the prominent representatives of the Azerbaijani prose, Honored worker of science of Azerbaijan, writer, literary-critic and professor. The bibliography contains rich material related to the life and work of the outstanding writer and his publications that preserved in the world libraries.

**©Azerbaijan National Library named after M.F.Akhundov, 2018**

# Göstərici haqqında

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırladığı bu biblioqrafiya Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, Azərbaycanın Əməkdar elm xadimi, yazıçı-alim, ədəbiyyatşünas, professor Mir Cəlal Paşayevə həsr edilmişdir.

Dahi Azərbaycan yazıçısı Mir Cəlal haqqında ilk biblioqrafiya 1968-cu ildə Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası tərəfindən nəşr olunmuşdur (tərt. ed. N.M.Teymurova; red. M.M.Həsənova, İ.H.Səfərov). 1998-ci ildə M.F.Axundov adına Milli Kitabxana tərəfindən görkəmli ədibin anadan olmasının 90 illiyi ilə əlaqədar olaraq 2-ci biblioqrafik göstərici tərtib edilmişdir (tərt. R.Q.Muradova; red. N.P.Nağıyeva). 2006-cı ildə Azərbaycan Milli Kitabxanası tərəfindən yazıçının biblioqrafiyası yenidən çap edilmişdir (tərt.-müəl. N.P.Nağıyeva; elmi red. Ş.Ə.Axundov; ixt. red. K.M.Tahirov; red. M.Ə.Vəliyeva)

Son on iki il ərzində görkəmli ədib haqqında kifayət qədər əlavə materialların çap olunduğunu nəzərə alan M.F.Axundov adına Milli Kitabxana ədibin anadan olmasının 110 illiyi münasibətilə "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından daha mükəmməl bir fundamental biblioqrafiya hazırlamağı qərara almışdır. Oxuculara təqdim olunan bu yeni biblioqrafiya daha da təkmiləşdirilmiş, yeni bölmələr və yarımbölmələr əlavə edilmiş, son on iki ilin materialları da əhatə olunmuşdur. Biblioqrafiyada Mir Cəlalın kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri, uşaqlar üçün işlədiyi kitablar, elmi-tənqidi və publisistik məqalələri, tərcümələri, redaktə etdiyi kitablar, rəhbərlik etdiyi dissertasiyalar, rus və başqa dillərdə çap olunmuş əsərləri, habelə ədibin həyat və yaradıcılığını əks etdirən bütün nəşrlər verilmişdir.Biblioqrafik göstəricidə ədəbiyyat xronoloji

qaydada qruplaşdırılmış, xronoloji çərçivə daxilində isə əlifba sırası gözlənilmişdir.

Biblioqrafiyada ilk dəfə olaraq verilmiş "Mir Cəlalın əsərləri dünya kitabxanalarında" bölməsində toplanan sənədlər ölməz sənətkarın irsinin bütün dünyada çox geniş yayılmasınnın əyani sübutdur. "Əlavələr" bölməsində isə toplanan "Mir Cəlal Paşayevin Bakı şəhərində yerləşən "Ədibin evi" və Gəncə şəhərində yerləşən ev-muzeyində mühafizə olunan arxiv materiallarının da əhatə olunması biblioqrafiyanın əhəmiyyətini daha da artırır. İnanırıq ki, bu sənədlər oxucuların böyük marağına səbəb olacaqdır.

Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə biblioqrafiyanın sonunda çox zəngin məlumat aparatı-köməkçi göstəricilər verilmişdir. Buraya görkəmli ədibin əsərlərinin və haqqında yazan müəlliflərin əlifba göstəriciləri, tərcümə etdiyi, redaktoru və tərtibçisi olduğu, habelə uşaqlar üçün işlədiyi əsərlərin köməkçi göstəriciləri daxildir.

Rus dilində materialların çoxluğunu nəzərə alınaraq həmin materiallar "Başqa dillərdə" bölməsindən ayrılaraq ayrıca bölmədə verilmişdir.

Göstərici haqqında rəy və təkliflərini bizə göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildiririk. Bütün rəy və təkliflərinizi M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərməyinizi xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəhəri, Xaqani küçəsi, 57.

**E-mail:** contact@anl.az.

## Mir Cəlalın həyat və yaradıcılığının əsas tarixləri

**Mir Cəlal Əli oğlu Paşayev** 1908-ci il aprel ayının 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində anadan olmuşdur. Uşaqlıq yaşlarından ailəliklə Gəncə şəhərinə köçmüşlər.

| | |
|---|---|
| **1918** | - Atası vəfat etdiyindən böyük qardaşının himayəsində yaşamışdır. |
| **1919** | - Gəncə Xeyriyyə cəmiyyətinin köməyi ilə ibtidai məktəbə getmişdir. |
| **1924** | - Gəncə Darülmüəlliminə daxil olmuşdur. |
| **1925** | - Lenin komsomolu sıralarına qəbul edilmişdir. |
| **1926-1927** | - Əvvəlcə Gəncə Darülmüəllimində tələbə təşkilatının, sonra isə şəhər tələbə həmkarlar təşkilatının sədri olmuşdur. |
| **1928** | - Darülmüəllimi bitirib, Gədəbəy yeddiillik məktəbində müəllimlik etmişdir;<br>- Yaradıcılığa başlayan Mir Cəlal əvvəlcə şeirlə, tənqidlə məşğul olmuş, sonra "Mirzə Xəyal" adlı komediya da yazmışdır. |
| **1929-1930** | - 1 №-li Gəncə şəhər məktəbində direktor vəzifəsində işləmişdir. |
| **1930** | - Kazan Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olmuşdur. |

| | |
|---|---|
| **1932** | - Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur;<br>- "Kommunist", "Gənc işçi" qəzetlərində işləmişdir;<br>- "Sağlam yollarda" adlı ilk kitabı çapdan çıxmışdır. |
| **1933** | - SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin İctimai elmlər bölməsində kiçik elmi işçi vəzifəsində çalışmışdır. |
| **1935** | - Aspiranturanı bitirmişdir. Ümumittifaq Sovet Yazıçıları briqadasının tərkibində Ağ dəniz – Baltik kanalında yaradıcılıq ezamiyyətində olmuşdur. |
| **1936-1941** | - V.İ.Lenin adına APİ-də və S.M.Kirov adına ADU-da müəllimlik etmişdir. |
| **1939** | - "Füzulinin poetik xüsusiyyətləri" adlı elmi işini müdafiə edərək, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. |
| **1940** | - "Bir gəncin manifesti" romanı ilk dəfə çapdan çıxmışdır;<br>- Moskvada keçirilmiş Azərbaycan Ədəbiyyatı dekadasının iştirakçısı olmuşdur. |
| **1944** | - Sovet İttifaqı Kommunist Partiyası sıralarına daxil olmuşdur. "Qafqazın müdafiəsinə görə" və SSRİ Elmlər Akademiyasının 220 illiyi ilə əlaqədar olaraq "Əmək igidliyinə görə" medalları ilə təltif edilmişdir. |
| **1944-1960** | - SSRİ EA Azərbaycan filialının Ədəbiyyat və Dil İnstitutunun Sovet ədəbiyyatı şöbəsinin mü- |

diri və S.M.Kirov adına ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasında dosent vəzifəsində işləmişdir.

**1946** - "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyinə görə" medalı ilə təltif edilmişdir;
- "Azərbaycanda ədəbi məktəblər" mövzusunda elmi işini müdafiə edərək filologiya elmlər doktoru alimlik dərəcəsini almışdır.

**1948** - S.M.Kirov adına ADU-da professor vəzifəsinə seçilmişdir.

**1950** - Moskvada keçirilmiş Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyünün iştirakçısı olmuşdur.

**1954** - SSRİ Yazıçılarının II qurultayında nümayəndə kimi iştirak etmişdir. "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**1958** - Anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq "Şərəf nişanı" ordeni və "Qabaqcıl maarif xadimi" nişanı ilə təltif edilmişdir.

**1959** - SSRİ Yazıçılarının III qurultayında nümayəndə kimi iştirak etmişdir;
- Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyünün iştirakçısı olmuşdur.

**1960** - "Əmək igidliyinə görə" medalı ilə təltif edilmişdir. Bir qrup sovet alimi ilə birlikdə Fransa səfərində olmuşdur.

**1961** - S.M.Kirov adına ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri vəzifəsində çalışmışdır.

| | |
|---|---|
| **1967** | - "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur;<br>- SSRİ Yazıçılarının IV qurultayında iştirak etmişdir. |
| **1968** | - Azərbaycan LKGİ MK-nın qərarı ilə "Bir gəncin manifesti" əsəri Respublika Lenin Komsomolu mükafatına layiq görülmüşdür. |
| **1969** | - Azərbaycan SSR-in "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.<br>- "Bir gəncin manifesti" əsəri Bakı şəhəri Mədəniyyət sarayının xalq teatrı tərəfindən tamaşaya qoyulmuş, tamaşa festivalın qalibi olmuşdur. |
| **1978** | - "Oktyabr İnqilabı" ordeni ilə təltif edilmişdir;<br>- Sentyabr ayının 28-də vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir. |
| **1986** | - 2 cilddə "Seçilmiş əsərləri" nəşr edilmişdir. |
| **2005** | - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə "Seçilmiş əsərləri" latın qrafikası ilə nəşr edilmişdir. |
| **2006** | - Adını daşıyan gəmi Xəzər dənizinə buraxılmışdır;<br>- Gəncə şəhərində adı verilmiş 39 nömrəli məktəbdə heykəlinin açılışı olmuşdur;<br>- Gəncə şəhərində Xatirə muzeyi fəaliyyətə başlamışdır. |

**2008** - BDU-nun "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasının önündə barelyefinin açılışı olmuşdur;
- 2008-2009-cu illərdə 100 illik yubileyinin rəsmi qeyd olunması ilə bağlı görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramı çərçivəsində YUNESKO Baş Konfransının 34-cü sessiyası qərar qəbul etmişdir;
- Parisdə YUNESKO-nun iqamətgahında 100 illiyinə həsr olunmuş mərasim keçirilmişdir. Mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva çıxış etmişdir.

**2010** - "Seçilmiş əsərlərinin üçcildliyi Bişkekdə qırğız dilində nəşr edilmişdir.

**2011** - Qırğızıstanın "Biyiktik" nəşriyyatı yazıçının üçcildlik əsərlərinin nəşrinə görə "Altın Mukaba" Qran-prisinə layiq görülmüşdür;
- "Elm və təhsil" nəşriyyatında görkəmli ədəbiyyatşünas alim Əhəd Hüseynovun "Mir Cəlalın bədii nəsri" kitabı çapdan buraxmışdır;

**2013** - "Əsərləri" 5 cilddə nəfis şəkildə nəşr edilmişdir.

**2014** - Teymur Əhmədovun ikicildlik "Mir Cəlal: Həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti" adlı kitabı çapdan çıxmışdır;
- Yazıçının "Yakiy obrati şlyax?" ("Yolumuz hayanadır?") adlı kitabı Kiyevdə Ukrayna dilində çapdan çıxmışdır.

**2017** - İçərişəhərdə "Ədibin evi" adlı ev-muzeyinin açılışı olmuşdur;

- "Ədibin evi" Mir Cəlal adına hekayə müsabiqəsi elan etmişdir;
- "Kəmtərovlar ailəsi" hekayəsinin motivləri əsasında "İki yad adam" filmi ekranlaşdırılmışdır (ssenari müəllifi Nicat Dadaşov).

**2018**
- "Türk dünyası ədəbiyyatı" seriyasından "Kəmtərovlar ailəsi" adlı hekayələr toplusu Türkiyədə çap edilmişdir;
- Ali məktəblər üçün "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyinin yenidən işlənmiş 4-cü nəşri çap edilmişir;
- Bişkekin "Turar" nəşriyyatında Hidayətin Mir Cəlal Paşayev haqqında "Mir Cəlal dünyasından sətirlər" esse-xatirə kitabı qırğız və rus dillərində nəşr edilmişdir;

# Основные даты жизни и творчества Мир Джалала

**Мир Джалал Али оглы Пашаев** родился 26 апреля 1908 году в селении Эндебиль Южного Азербайджана. В детские годы по семейным обстоятельствам переехали в город Гянджа.

| | |
|---|---|
| **1918** | - После смерти отца находился на попечении старшего брата. |
| **1919** | - При содействии Гянджинского Благотворительного общества был принят в начальную школу. |
| **1924** | - Поступил в Гянджинский Педагогический Техникум. |
| **1925** | - Вступил в ряды Ленинского комсомола. |
| **1926-1927** | - Стал вначале председателем студенческого профсоюзного комитета Гянджинского Техникума, а затем председателем Городской студенческой профсоюзной организации. |
| **1928** | - Окончил университет и преподавал в Гедабекской семилетней школе;<br>- Начало творческой деятельности. Вначале это написание стихов и критических статей, а затем появление на свет комедии «Мирза Хаял». |
| **1929-1930** | - Работал директором школы № 1 города Гянджи. |

| | |
|---|---|
| **1930** | - Поступил на литературное отделение Казанского Восточно-Педагогического Университета. |
| **1932** | - Возвратился в Баку. Поступил в аспирантуру Азербайджанского Государственного Научно-Исследовательского Института;<br>- Работал в редакциях газет «Коммунист», «Молодой работник»;<br>- Издал первую книгу «На верном пути». |
| **1933** | - Работал младшим научным сотрудником сектора Общественных наук азербайджанского отдела Закавказского филиала АН СССР. |
| **1935** | - Окончил аспирантуру. В составе всесоюзной бригады советских писателей отправился в творческую командировку на Беломорско-Балтийский канал. |
| **1936-1941** | - Преподавал в Азербайджанском Педагогическом Институте им. В.И.Ленина и АГУ им. С.М.Кирова. |
| **1939** | - Защитил диссертацию «Поэтические особенности поэзии Физули» и получил степень кандидата филологических наук. |
| **1940** | - Был участником декады азербайджанской литературы в Москве. |
| **1944** | - Вступил в ряды Коммунистической Партии Советского Союза;<br>- Был награжден медалями «За оборону Кавказа» и «За доблестный труд» (в связи с 220-летием АН СССР). |

**1944-1960** - Занимал должность заведующего Отделом советской литературы Института языка и литературы азербайджанского филиала АН СССР и доцента кафедры азербайджанской литературы АГУ им. С.М.Кирова.

**1946** - Был награжден медалью «За доблестный труд в годы Великой Отечественной Войны 1941-1945 гг.»;
- Защитил докторскую диссертацию по теме «Литературные школы в Азербайджане» и был удостоен степени доктора филологических наук.

**1948** - Был избран профессором АГУ им. С.М.Кирова.

**1950** - Был участником проводимой в Москве декады азербайджанской литературы и искусства.

**1954** - Участник II съезда Писателей СССР;
- Награжден орденом «Знак Почета».

**1958** - В связи с 50-летием был награжден орденом «Знак Почета» и значком «Отличник народного просвещения».

**1959** - Участник III-го съезда писателей СССР;
- Был участником проводимой в Москве декады азербайджанской литературы и искусства.

**1960** - Награжден медалью «За доблестный труд». В составе группы ученых посетил Францию.

**1961** - Заведующий кафедрой Азербайджанской литературы АГУ им. С.М.Кирова.

| | |
|---|---|
| **1967** | - Был награжден орденом «Трудового Красного Знамени». Участник IV-го съезда писателей СССР. |
| **1968** | - По решению ЦК Ленинского Коммунистического Союза Молодежи Азербайджана произведение «Манифест молодого человека» было удостоено премии Ленинского Комсомола Республики. |
| **1969** | - Присвоено звание «Заслуженный деятель науки» Азербайджанской ССР;<br>- Произведение «Манифест молодого человека» было поставлено на сцене народного театра Бакинского дома культуры и стало победителем фестиваля. |
| **1978** | - Был награжден орденом «Октябрьской Революции»;<br>- Скончался 28 сентября. Похоронен на Второй Аллее Почетного захоронения в Баку. |
| **1986** | - Издано двухтомное издание избранных произведений. |
| **2005** | - В соответствии с историческим указом Президента Азербайджанской Республики Ильхама Алиева «Об осуществлении массовых изданий на Азербайджанском языке на латинской графике» от 12 января 2004 года, были изданы на латинице «Избранные произведения» прозаика. |
| **2006** | - Был спущен на воду корабль, носящий имя Мир Джалал Пашаева; |

- В Гяндже у школы № 39, носящей имя писателя, был открыт памятник;
- В связи со 100-летием со дня рождения писателя в Гяндже был открыт Музей памяти.

**2008** - В БГУ перед кафедрой «История азербайджанской литературы» состоялось открытие барельефа.

**2008-2009** - В рамках программы ЮНЕСКО о праздновании юбилейных памятных дат и юбилеев выдающихся личностей, на 34-й сессии Генеральной Конференции ЮНЕСКО было принято решение о проведении в 2008-2009 годах официальных торжеств по поводу столетия выдающегося представителя азербайджанской литературы Мир Джалала Пашаева.

**2013** - Вышел в свет изящно оформленный и прекрасно иллюстрированный пятитомник произведений писателя.

**2014** - Вышло в свет двухтомное издание «Мир Джалал: Жизнь, окружение, литературная, научная и педагогическая деятельность» (автор Теймур Ахмедов)
- Книга писателя «Який обрати шлях» (Куда ведут дороги?») издана в Киеве на украинском языке.

**2017** - В Ичеришехер состоялось открытие дома-музея писателя – «Дом литератора»; Был объявлен конкурс рассказов имени Мир Джалала

- По мотивам рассказа Мир Джалала «Семья Камтаровых» был снят фильм «Два чужих человека» (автор сценария Ниджат Дадашов)

**2018** - Сборник рассказов под названием «Семья Камтаровых» был издан в Турции в серии «Литература тюркского мира»

# The main dates in Mir Jalal's life and work

**Mir Jalal Ali oghlu Pashayev** was born in Andabil village of the South Azerbaijan on April 26, in 1908. But his sorrowful destiny brought him to Ganja from his childhood.

| | |
|---|---|
| **1918** | - As his father died, he was brought up under the patronage of his brother. |
| **1919** | - By the help of Ganja Charity Society, he entered the primary school. |
| **1924** | - Entered the Ganja Darulmuallim |
| **1925** | - Joined the rank of All-union Leninist Young Communist League |
| **1926-1927** | - Initially, he had been the chairman of Students' organization at Ganja Darulmuallim, later City Student Trade Union. |
| **1928** | - After graduating from Darulmuallim, he began to teach in 7-year school in Gadabay.<br>- At first, Mir Jalal began to engage with poems and critics, later on he wrote a comedy called "Mirza Khayal". |
| **1929-1930** | - Worked as a director at Ganja school No.1. |
| **1930** | - Enter the Faculty of Language and Literature of Kazan Pedagogical Institute . |

| | |
|---|---|
| **1932** | - Coming back to Baku, he entered the postgraduate school at the Azerbaijan State Scientific-Research Institute.<br>- Worked in "Communist", "Young worker" newspapers.<br>- His first book named "On the healthy roads" was published. |
| **1933** | - Worked as a junior researcher at the Social sciences section of Azerbaijan Department of the Transcaucasian branch of the USSR AS. |
| **1935** | - Finished his postgraduate study. Had been in a business travel in the White Sea-Baltic canal within the All-Union Soviet Writers' brigade. |
| **1936-1941** | - He had been teaching at API named after V.I.Lenin and at ASU named after S.M.Kirov. |
| **1939** | - Defending his doctoral dissertation "Poetic features of Fuzuli", he got a degree of candidate of philological science. |
| **1940** | - Had been the participant of the decade of Azerbaijani literature held in Moscow. |
| **1944** | - Joined the ranks of the Communist Party of the Soviet Union.<br>- He was awarded the medals "For the defense of the Caucasus" and "For Labor Valor" in connection with the $220^{th}$ anniversary of the USSR Academy of Sciences. |
| **1944-1960** | - Worked as a head of the Soviet literature Department at the Institute of Literature and |

Language of the USSR AS Azerbaijan branch, and Associate professor at the Azerbaijani literature Chair of ASU named after S.M.Kirov.

**1946** - He was awarded the medal "For valiant labor in the Great Patriotic War of 1941-1945".
- Got the degree of Doctor in Philology for his "Literary schools in Azerbaijan" work.

**1948** - Had been elected as a professor at ASU named after S.M.Kirov

**1950** - Had been the participant of Azerbaijani Literature and Art ten-day event that held in Moscow.

**1954** - Participated in the II Congress of USSR writers as a delegate, and had been rewarded with the Order of the Badge of Honor.

**1958** - In connection with the 50th anniversary of his birth, he was awarded the Order of the Badge of Honor and the badge "Leading enlightenment figure".

**1959** - Participated in the III Congress of USSR writers as a delegate.
- Had been the participant of Azerbaijani Literature and Art ten-day event that held in Moscow.

**1960** - He was rewarded with the medal "For Labor Valor". Together with a group of Soviet scientists, he visited France.

| | |
|---|---|
| **1961** | - Worked as a head of the Azerbaijani literature Chair at the ASU Named after S.M.Kirov |
| **1967** | - He was awarded the Order of the Red Banner of Labor.<br>- Participated in the IV congress of the USSR Writers. |
| **1968** | - By the decision of Azerbaijan Leninist Young Communist League Central Committee, his "Manifest of a young man" work was awarded the Republican Lenin Komsomol prize. |
| **1969** | - He was conferred the "Honored worker of science".<br>- His "Manifest of a young man" work was performed by the folk theatre of Baku Cultural Palace and the spectacle had been the winner of the festival. |
| **1978** | - Rewarded with the Order of "October Revolution".<br>- Died on September 28, 1978, and was buried in the II Alley of Honor (Honorary Alley). |
| **1986** | - "Selected works" was published in two volumes. |
| **2005** | - "Selected works" was published in Latin alphabet by the order of the President of the Azerbaijan Republic "On the publishing mass media in Latin alphabet in Azerbaijani language" dated January 12, 2004. |
| **2006** | - The ship that bearing his name was launched to the Caspian Sea. |

| | |
|---|---|
| | - Opening ceremony of his statue in Ganja, at the school No.39 that bearing his name.<br>- Memorial Museum was opened in Ganja on the occasion of the 100th anniversary of his birth. |
| **2008** | - The opening of bas-relief of Mir Jalal was held in front of the “Azerbaijani literature history” chair. |
| **2008-2009** | - In the 34th session of the UNESCO General Conference, it was decided to officially celebrate the 100th anniversary of the writer Mir Jalal Pashayev in 2008-2009 within the framework of the “Commemoration of anniversaries of eminent personalities and significant events” program of UNESCO. |
| **2013** | - His works were published in 5 volumes |
| **2014** | - Teymur Ahmadov’s “Mir Jalal: Life, environment, literary, scientific and pedagogical activity” book was published<br>- The writer’s book named “Where are we going?” was published in Kiev in Ukrainian language. |
| **2017** | - A home-museum named “The writer’s house” was opened at Icherisheher.<br>- “The writer’s house” announced a competition of short stories named after Mir Jalal.<br>- The movie “Two strangers” was screened on the motives of the story “Kamtarovs family” |

**2018** - A collection of short stories entitled "Kamtarovs family" was published in Turkey in the series of "Literature of the Turkic world";
- Revised fourth edition of the "XX century Azerbaijani literature" textbook was published for universities.
- Essay-memory book by Hidayat about Mir Jalal Pashayev titled "Lines from Mir Jalal world" was published in Kyrgyz and Russian languages at "Turar" publishing house in Bishkek;
- "Selected short stories" book was published.

# Görkəmli şəxslər və qələm dostları Mir Cəlal haqqında

Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanımızda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatımızdan keçir. Bu, bizim şairlərimizin, yazıçılarımızın əsərlərinin hamısından keçibdir. Klassik adlandırdığımız Səməd Vurğunun, Rəsul Rzanın, Mir Cəlalın, İlyas Əfəndiyevin, Osman Sarıvəllinin, Süleyman Rəhimovun, Mehdi Hüseynin də əsərlərindən yan keçməyibdir...

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır. Xalq yaradıcılığı ilə klassik bədii irsin qabaqcıl ənənələrinin vəhdətini yeni formada yaşadan və ədəbiyyata həyat gətirmiş yazıçı kimi tanınan Mir Cəlal Paşayev eyni zamanda görkəmli tədqiqatçı alim olmuşdur.

**İlham Əliyev**,
*Azərbaycan Respublikasının Prezidenti*

Onun əsərləri bütöv bir dövrün mənzərəsini yaradır. O, böyük pedaqoq kimi Azərbaycan cəmiyyəti üçün minlərlə açıqfikirli tələbə yetişdirmişdir.

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,*
*Heydər Əliyev Fondunun prezidenti, UNESCO və*
*İSESKO-nun xoşməramlı səfiri*

Müasir Azərbaycan ədəbiyyatının görkəmli təməlçilərindən olan Mir Cəlalın zəngin irsi məhz böyük həqiqətlərin sonsuz səmimiyyətlə bədii təcəssümünə əsaslanır. Təxminən əlli illik bədii yaradıcılığında Mir Cəlal öz oxucuları ilə həmişə səmimi və obyektiv söhbət aparmışdər; həyat materialını hər cür "kosmetik əməliyyatlardan" uzaq, bütün həqiqətləri ilə, gözəllik və faciələri ilə, gülməli və ağlamalı tərəfləri ilə canlandırmağı bacarmışdır. Buna görə də sovet dövründə yazılmış əsərləri bu gün də eyni maraq və məhəbbətlə qarşılanır, köhnəlmir və yəqin ki, heç vaxt da köhnəlməyəcək. Onların hər biri yazıldığı zamanın siyasi-ictimai və psixoloji-mənəvi səciyyəviliklərini dəqiqliklə, müfəssəlliklə təcəssüm etdirdiyindən, öz tarixinin bədii abidəsi, yadigarı kimi əbədiyaşardır.

***

Mir Cəlal deyəndə, hər şeydən əvvəl, gözəl romanlar və hekayələr müəllifi olan ədib təsəvvürümüzdə canlanmış olur. Çünki o, xalqımızın bədii yaddaşında ictimai tariximizin, xalq taleyinin mühüm problemlərini təhlil edən, həyat və tarix haqqında xalqı ilə ürəkdən, səmimi dəedləşə bilən, onunla sevinc və dərd şəriki olan ustad sənətkar kimi silinməz izlər buraxmışdır. "Dirilən adam", "Bir gəncin manifesti","Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər", "Yolumuz hayanadır" kimi romanları, 292 hekayəsi və başqa janrlarda yazılmış bir çox əsəri həqiqi sənətkarın öz xalqı ilə əsl həsb-halının, dərdləşməsinin bədii nümunələridir!

**Nərgiz Paşayeva,**
*akademik*

Mir Cəlal müəllim XX əsr Azərbaycan nəsrinin yükünü çiyinlərində daşıyan görkəmli yazıçılarımızdan biridir.

***

Mir Cəlal təbiət etibarilə necə sadə idisə, danışığı da elmi və

bədii təhkiyyəsi də eləcə idi və əsas məsələ burasındadır ki, onun həm şəxsiyyətində, həm də yaradıcılığındakı o sadəlik qətiyyən primitvlik yox, müdrikliyin nəticəsi idi.

**Elçin,**
*Xalq yazıçısı*

Mir Cəlal yaradıcılığının ən üstün cəhətlərindən biri də onun təmiz, şaqraq və büllur dili idi. Onun dili, xalq danışıq tərzinə uyğun, son dərəcə canlı, təbii ifadələrlə zəngin və bədii dildir.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Mir Cəlalın yaradıcılığının şahidi olmaq, əksər əsərlərinin ilk oxucusu olmaq taleyin mənə bəxş etdiyi xoşbəxtlik idi.

**Hafiz Paşayev,**
*professor*

Azərbaycan xalqının XX əsrin sonlarında qazandığı müstəqillik, heç şübhəsiz, bir neçə yüzillik tarixi olan milli azadlıq ideallarına, bu idealların həyata keçirilməsi uğrunda aparılmış ardıcıl mübarizələrə əsaslanır. Və həmin idealların təmərküzləşib daha məqsədyönlü xarakter almasında, bu və ya digər dərəcədə kütləviləşib ümumxalq səciyyəsi daşımasında XX əsrin əvvəllərindən başlayaraq sürətlənən ictimai- siyasi, mənəvi-mədəni və ideoloji proseslər xüsusi rol oynamış, öndə gedərək xalqa doğru yol göstərmək missiyasını mütəvaze bir məsuliyyətlə yerinə yetirən ziyalı-mütəfəkkirlər yetişmişdir ki, onlardan biri də böyük ədibimiz Mir Cəlal Paşayev olmuşdur.

**Nizami Cəfərov,**
*akademik*

Mir Cəlal müəllim mənəvi cəhətdən saf, təmiz bir insan idi. Tamah hissindən uzaq, az-çoxa qane olan, gözü-könlü tox, təmiz bir ziyalı idi.

***

Mir Cəlalın qəhrəmanları olduqca təbii, inandırıcı, koloritli bir şəkildə danışırlar... Mir Cəlal peyzajı da canlı və təbii verir. peyzaj əsərdəki hadisələrlə o dərəcədə bağlıdır ki, o, əsərin ayrılmaz, üzvi bir parçasına çevrilir.

***Məmməd Arif,***
*akademik*

Mir Cəlal sakit və təmkinli bir yazıçıdır; o boş və artıq gurultudan, təbiiliyi poza biləcək bir cizgi belə işlətməkdən çəkinən yazıçıdır.

***Məmməd Cəfər,***
*akademik*

Mir Cəlalın “Bir gəncin manifesti” əsəri otuzuncu illərdə yaranan Azərbaycan romanının ən yüksək mərhələsi idi.

**Mehdi Hüseyn,**
*Xalq yazıçısı*

Mir Cəlal müəllim həqiqətən peyğəmbər təbiətli insan idi. Xeyirxahlıq onun canında, qanındaydı. Mir Cəlal müəllim insanpərvər idi. İstedadlı adamların qədrini bilirdi.

**Nəriman Həsənzadə,**
*Xalq şairi*

Ədəbiyyatdan canlı həyat qədər zövq alan, şeir və sənətdən danışmaqdan əsla doymaq bilməyən, bədii əsərlərin, klassik irsin nəşri və ardıcıl təbliğini bir an belə unutmayan həssas, tələbkar, qayğıkeş bir vətəndaş olan Mir Cəlal gənc ədəbiyyatşünaslara ədəbiyyatımızın və dilimizin qeyrətini çəkməyi həmişə tövsiyə edərdi.

**Firidun Hüseynov,**
*professor*

Mir Cəlal müəllim bir insan kimi çox sakit, işıqlı, müdrik simaya malik idi. Onun üzündə, gözlərinin dərinliyində daim işıqlı, munis, nurlu bir təbəssüm olardı.

**Şamil Salmanov,**
*professor*

“Mir Cəlal sənətkardır, yaradıcıdır. Onun romanının hər bir sözü öz tərcümeyi-halının bir hissəsi kimi görünür. Canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir. Kitabı oxuyub örtdükdən sonra adama elə gəlir ki, özünün dünənki həyatını, həyəcan və sevinclərini sənə nağıl edən bir adamla bir neçə saat maraqlı söhbət etmisən”. Bu sitatdır. Sizin yaradıcılığınızdakı dərin səmimiyyətdən bəhs edən onlarca tənqidçi və ədəbiyyatşünasdan tək birinin qeydi.

Mir Cəlalın əsərlərində əvvəldən axıra qədər kəndə bağlı olan ağsaçlı ata-anaların, xala və dayıların surətləri əsas yer tutur. Yazıçı öz taleyini onların taleyindən ayırmır, öz qəlbində onların ürəyinin, onların ürəyində öz ürəyinin döyüntüsünü hiss edir.

**İsa Hüseynov,**
*Xalq yazıçısı*

Mir Cəlalın insanlara, iş yoldaşlarına, ümumən onunla az və ya çox dərəcədə əlaqədar olan adamlara aydın, açıq münasibəti var idi. Adamlara şəxsi keyfiyyətinə, savadına, intizamına, tapşırılan işi yerinə yetirmək qabiliyyətinə görə münasibət bəsləyirdi.

**Yusif Seyidov,**
*professor*

Şeirdən, sənətdən danışanda, həmişə ədəbiyyatın bəzi problemlərinə də toxunar, nəzəri məsələləri çox sadə bir tərzdə izah edərdi. Çox vaxt bizə bu fikri aşılamağa çalışardı ki, ədəbiyyata təsadüfi gəlib çıxanlar gec-tez səhfini anlayıb uzaqlaşacaq və sevdiyi sahəni özü axtarıb tapacaqdır.

**Əmirxan Xəlilov,**
*professor*

Mir Cəlalın “Füzuli sənətkarlığı” monoqrafiyası Füzuli ədəbi irsini öyrənmək, mənimsəmək və dərk etmək üçün elmi açardır.

**Qara Namazov,**
*professor*

Mir Cəlal görkəmli ALİM idi. Alim sözünü böyük hərflərlə nəzərə çarpdırmağımın və ondan əvvəl görkəmli təyinini işlətməyimin səbəbi var. Mir Cəlal yazıçı olmasaydı belə, biz ondan elmdə müəyyən iz buraxan görkəmli bir alim kimi söz açardıq.

**Vaqif Yusifli,**
*filologiya elmləri doktoru*

Professor Mir Cəlal Paşayev geniş yaradıcılıq fəaliyyətinə malik olan bir şəxsiyyət idi: O, görkəmli yazıçı, tanınmış nəzəriyyəçi, filoloq alim, nümunəvi müəllim kimi xatirələrdə əbədi yaşayır. Mir Cəlal müəllim nəzəri filoloq olmaqla yanaşı, çox gözəl müəllim kimi tanınırdı. O, təkcə bilik vermir, eyni zamanda hərəkətləri, adamlara münasibəti ilə tərbiyə edirdi.

***

Professor Mir Cəlal müəllimin mülayimliyi, humanizmi onun ciddiyyətinə, obyektivliyinə qətiyyən mane olmurdu. O, bu mülayimliyi ilə yanaşı, olduqca prinsipial və obyektiv bir şəxsiyyət idi.

**Şəmistan Mikayılov,**
*professor*

Məktəblərdə, mütləq "insanlıq" bir predmet kimi təlim olunmalıdır. İnsanlıq və insanlıq fəlsəfəsi Mir Cəlaldan ötrü həyat idealına çevrilmişdir. İnsanlıq və insanlıq fəlsəfəsi onun əsərlərində həmişə qırmızı bir xətlə keçirdi.

**Qılman İlkin,**
*Xalq yazıçısı*

Oxucunun etimadını, xalqın hörmətini qazanmaq o qədər də asan iş deyil. Xalq işində yüksək məsuliyyət hissi, düzlük, doğruluq, çörəyi halal, əməyə bağlılıq, sənətin mücahidi ola bilmək, böyüyə hörmət, kiçiyə mərhəmət, ailəyə sədaqətli olmaq kimi yüksək insani keyfiyyətlərlə zəngin olan gənc qələm sahibi Mir

Cəlal, illər keçdikcə sözünə, nəsihətinə ehtiyac duyulan ağsaqqala çevrildi.

**Mirvarid Dilbazi,**
*Xalq şairi*

Alim Mir Cəlal Paşayevin elmi əsərlərinin dili, üslubu öz qələm yoldaşlarının heç birinin dilinə, üslubuna oxşamır. Onun əsərlərində nə publisistika var, nə də qəliblənmiş elmi terminli tədqiqat dili. O, elmi əsərlərini yazıçı Mir Cəlalın qələmindəki yığcamlıq və şirinliklə, amma dərin axıcı elmi mühakimə tutumu olan dillə yazardı. Bu yazı indi də təkraredilməz örnəkdir.

**Pənah Xəlilov,**
*filologiya elmləri doktoru,*
*professor*

Mir Cəlal müəllim hər şeydən əvvəl çox orijinal və qüdrətli bir pedaqoq idi. O, təbiəti, davranışı və əməlləri ilə tələbələrinə ibrətli, təsirli örnək idi. Aspirant olanda da, müəllim kimi bir yerdə işləyəndə də hər bir fikrimizi, hərəkətimizi yerindəcə "redaktə" etməyi unutmazdı. Həyata, yaradıcılığa böyük amallarla, müqəddəs ideyalarla baxardı və tələbələrinə də bunu təlqin edərdi.

**Təhsin Mütəllimov,**
*AMEA-nın müxbir üzvü,*
*Əməkdar elm xadimi*

Mir Cəlal müəllim dünyasını çox tez dəyişdi. Ancaq o, bir ömürdə neçə ömür yaşadı: gözəl bir alim, qüdrətli sənətkar və ən başlıcası, ləyaqətli və heç zaman unudulmayan bir insan ömrü.

**Balaş Azəroğlu,**
*Xalq şairi*

Bəli, mən onun çoxsaylı əsərlərini, bədii və elmi araşdırmalarını oxuduqca, onun manifestini görürəm. Hörmətli müəllimlərim və dostlarım, professorlar Teymur Əhmədovun, Qara Namazovun, Vaqif Vəliyevin, mərhum Firidun Hüseynovun xatirələri

mənim ürəyimdəki müəllim heykəlini, sadə insan obrazını daha da nurlandırıb. Bu nurlu obraz – Mir Cəlal müəllimdir. Dodağından təbəssüm düşməyən, hörmətli Mir Cəlal müəllim. Onun yazdıqları və bizə dedikləri isə mənalı bir ömrün manifestidir.

**İsmayıl Vəliyev,**
*filologiya elmləri doktoru, professor*

Elmi ədəbiyyata bələd olduqca Mir Cəlal müəllimin bir alim kimi dərin zəkasına, analatik təfəkkürünə, erudisiyasına, zəhmətkeşliyinə heyran olurdum. O, təkcə istedadlı müəllim, yazıçı deyilmiş, həm də mütəfəkkir ədəbiyyatşünas-alim imiş. Bunu mən onun ədəbi məktəblər haqqında yazdığı monumental tədqiqat əsərini, Məhəmməd Füzuli irsi, Cəlil Məmmədquluzadə realizmi, Nəriman Nərimanovun bədii yaradıcılığı və s. elmi araşdırmalarını oxuduqca, sanki kəşf etdim.

**Teymur Əhmədov,**
*filologiya elmləri doktoru, professor*

Biz, o uzaq illərin tələbələri hərdən görüşüb, bir yerə yığışanda istər-istəməz müəllimlərimizdən söz salır, hörmət və ehtiramla onları xatırlayırıq. Bu sırada Mir Cəlal müəllimin ayrıca yeri, istək mərtəbəsi var. O, öz adını bizim hər birimizin qəlbinə nurlu hərflərlə nəqş edib. Unudulmaz müəllimimizin, gözəl sənətkarlarımızın işıqlı obrazı xəyallarımızdan gələcək illərə boylanır. Fikrimizdə isə hamımızın eyni vurğu ilə dilə gətirdiyimiz sözlər qanadlanır: "Ürəyinə ürək çatmazdı, bir işıq idi Mir Cəlal müəllim!"

**Nahid Hacızadə,**
*Əməkdar mədəniyyət işçisi*

Mir Cəlal müəllim böyük yazıçı, böyük alim, gözəl insan kimi Azərbaycan ədəbiyyatı və mədəniyyəti üçün çox böyük işlər görmüş, XX əsr ədəbiyyatşünaslığı məktəbini yaratmışdır.

**Abdulla Abbasov,**
*filologiya elmləri doktoru, professor*

## Mir Cəlalın müdrik kəlamları

*Çörək elə şeydir, tülkünü aslan edir, aslanı tülkü.*

***

*Kölgədə bitən ağacın kölgəsi olmaz.*

***

*Bəzi ulduzlar kiçik olduqları üçün yox, yüksəkdə olduqları üçün görünmürlər.*

***

*Heyhat! Qoca dünya – bəzən öz gərdişini sərt bir sükut, daş bir ürək, kor bir məntiq, daimi bir amansızlıqla keçirən qoca dünya, kimsə ilə hesablaşmır.*

***

*Bizim zəmanədə insan insanın cəlladıdır. Kimin ki, əlində ixtiyar var, nə desə doğrudur. Kim ki, məzlumdur, nə desə yalandır.*

***

*Həyat belədir! Yüksəlmək çətin və zəhmətli, ancaq səfalı, fərəhli olur, enmək isə ani və qüssəli olur.*

***

*Azadlıq verilməz, alınar.*

***

*Azadlığı qorumaq – onu fəth etmək qədər müqəddəsdir.*

***

*Zəncirləri qırmaq üçün əql gücü də, əl gücü də işlətmək lazımdır.*

***

*Yaxşı analıq çətin, lakin çox şərəfli, çox müqəddəs işdir. Ana qəlbi insanın ilk məktəbidir. Məhəbbətin, səmimiyyətin, sədaqətin pozulmaz kitabıdır.*

***

*Ən müdhiş fəlakətə düşəndə də ana qəlbi böyükdür!*

***

*Qadın qəlbi qapalı bir ağacdır, açarı da qadının özündədir. Bu açarı qəlbdə yanan sevgi fanarı ilə arayıb tapmalı.*

***

*Gözəlliyi yalnız görkəmdə, donda, zahirdə axtarmaq olmaz. Zahir insanı aldada bilər. Çox təmtəraqlı libas altında çirkinliklər gizlənir. Çirkin görünən don, görkəmsiz zahir dalında da bəzən gözəl məna, ali fikirlər olur.*

***

*Balalarımızın tərbiyəsi, vətənimizin gələcəyi üçün, həqiqət, ədalət naminə hər vasitəyə əl atmaq gərəkdir.*

***

*Qoca üçün də, cavan üçün də el qabağında dayanıb cavab verməkdən çətin bir iş olmasın gərək.*

***

*Həmişə, hər yerdə, hər kəsə ürəyindəkini deyə bilsən! Bax, bundan böyük xoşbəxtlik yoxdur.*

***

*İtən hörməti qapı-qapı gəzib dilənmək olmaz!*

***

*Subaylıq – sonsuzluqdur.*

***

*Həqiqi sənət xalqdan doğar, xalqa xidmət edər.*

***

*Yazı ürəkdən gələn bir səsdir. Ürək isə müqəddəs hisslərin beşiyidir.*

***

*Qarıncadan yazanda da sənətkar olmaq hünərdir. Gül, bülbül onsuz da gözəldir. Əsl sənət qarıncanın gözəlliyini kəşf etməlidir.*

***

*Ədəbiyyatşünaslıq fikir söyləməkdir.*

***

*Gənclik həyat, yenilik, sağlam enerji deməkdir. Bu aləmdən kənarda qalmaq mənən ölmək deməkdir.*

***

*Sevgi – insan təbiətinin ən zəruri, ən gözəl və müqəddəs keyfiyyətlərindən olan sevgi, hər zaman, hər yerdə sənətin, xüsusən şeirin mərkəzi mövzularından olmuşdur. Bu qanuni və təbiidir. Normal insanın qəlbi sevgidən xali ola bilməz.*

***

*Qəlb – bütün böyük, ülvi hisslərin yatağı olan təmiz qəlb, məhəbbətin də beşiyidir. Elə bir böyük və ya kiçik ədəbiyyat olmamışdır ki, orada qəlbin həyatı bu və ya başqa dərəcədə əks edilməsin.*

***

*Gövhəri qumdan ayırmağı bacarmaq lazımdır, arxivlərin əsiri olmaq yaramaz.*

***

*Vallah, bu vəfat eləyən bəzi yazıçıları o qədər tərifləyirlər, adam lap peşman olur ki, niyə mən indiyəcən sağ qalmışam.*

***

*Diriykən ölmək kimə lazımdır, qardaş, bir dəfə öləcəyik də, ta sızıldamaq nə üçündür?*

***

*Əsilsiz it leş başında öz sahibini tutur, ona hücum eləyir. Əsilsiz adamlar da iş başına keçən kimi qudurur. Onu bu mərtəbəyə qaldıran xalqın qəniminə, başının bəlasına çevrilir. Belə adamları vəzifəyə qoymaq cinayətdir.*

***

*Həmişə dostluqda belə möhkəm olun, çətin anlarda bir-birinizi qoruyun, bir-birinizə dayaq durun. Aranıza nifaq, təfriqə salmağa qoymayın. Birlik olmasa, Azərbaycan ziyalısı öz milli-bəşəri borcunu, vətəndaşlıq funksiyasını heç vaxt yerinə yetirə bilməyəcək. Səhvlərə yol verməyin. Bizim nəsil bunu bacarmadı. Ona görə də hələ də ağrısı kəsilməyən qanlı faciələrə düçar olduq.*

***

*Uşaq nə görür onu götürür, nə eşidir onu yadında saxlayır. Biz balalarımızı öz əlimizlə bədbəxt edirik, kor qoyuruq. Bununla təkcə özümüzə yox, cəmiyyətə, ölkəmizin gələcəyinə zərbə endiririk. Təhsil, tərbiyə xüsusi diqqət, qayğı tələb edən, böyük strateji əhəmiyyəti olan spesifik bir sahədir. Ona laqeyd yanaşmaq xalqa, millətə xəyanətdir.*

# Mir Cəlal görkəmli şəxslər və ədəbiyyatımız haqqında

*__Füzuli__ yalnız Azərbaycan xalqının, yalnız öz əsrinin deyil, bütün bəşəriyyətin, renessans dövrünün, böyük sənətin böyük oğludur. Əsrlərdir ki, mədəniyyət dünyasında şeir, sənət anlaşılan, sevilən hər bir ölkədə və cəmiyyətdə bu böyük dahinin adı iftixarla yad edilir və əbədi olaraq yad ediləcəkdir.*

*Füzuli sənətinin qüdrətini, miqyasını, məziyyətlərini təhlil və təyin etmək bir nəfərin, bir elmi məktəbin, hətta bəlkə də bir elmi nəslin işi deyildir. Bu böyük və şərəfli vəzifə ədəbiyyat, sənət, dil, fəlsəfə elmlərinin qarşısında durmaqda və həllini gözləməkdədir.*

***

*Azərbaycanı şeirə __Səməd Vurğun__ gətirdi. Səməd əlli yaşında dünyada tanınan şair oldu, bir zaman onu bəyənməyən, şeirlərinə dodaq büzüb, "eh, nədir ki, mən ondan yaxşısını yazacağam", deyən lovğalar elə yerində saya-saya qaldılar.*

---

*__Səməd Vurğun__ sağlığında Azərbaycan şeirini bütün dünyada yayan canlı tribuna olmuşdur. O, sözün əsl mənasında vətəninin, elinin, üstündə boya-başa çatdığı torpağın vurğunu idi. İndiyədək ədəbiyyatımız tarixində onun böyük ustalıqla vətənimizin poetik xəritəsini çəkən, canlı, əlvan, rəngarəng boyalarla bəzədilmiş ölməz sənət tablosunu xatırladan "Azərbaycan" şeiri səviyyəsində ikinci bir şeir yazılmayıb və bəlkə gələcəkdə də yazılmayacaq. Adamların "Azərbaycan vətənimdir" sözlərini deməkdən çəkindiyi bir vaxtda "El bilir ki, sən mənimsən, yurdum, yuvam, məskənimsən" hökmünü ancaq Səməd Vurğun kimi böyük vətənpərvər, mərd, mübariz bir şəxsiyyət verə bilərdi.*

*Səməd Vurğun heç vaxt kağız korlamayıb. Onun şeirləri*

*qələmindən çıxan kimi dərhal bütün ölkəyə yayılırdı, dillərdə əzbərə çevrilirdi.*

***

***Mirzə Cəlil*** *məzlum Şərqin böyük ədibidir, "Anamın kitabı" həqiqət kitabıdır.*

---

***Mirzə Cəlil*** *kimi o zaman xalqa yaxın olan ədib tapmaq çətindir, amma onun qədər asan, sadə, təbii yazan da yox idi. Bəs bu cavanlar niyə ədəbiyyatımızı, mədəniyyətimizi pis öyrənirlər, görüb-götürmürlər? Bəzi cavan alimlərin də əsərini oxuyanda, ya da özünə qulaq asanda, görürsən, sözündən bu çıxır ki, elə hər şey məndən başlayır. A bala, bəs səndən əvvəl yazıb-pozanlar harda qaldı?*

***

*Yarım əsrlik kəskin mübarizədən sonra realizm – həyat üslubu qalib gəldi. Axundovun başladığı şərəfli işi davam və inkişaf etdirən böyük ədiblər yarandı. Bunların içində* ***Ə.Haqverdiyev və Mirzə Cəlilin*** *(Molla Nəsrəddinin) mövqeyini xüsusi qeyd etmək lazımdır. Bizim yeni nəsrimizdə realizm üslubu çox haqlı olaraq, bu iki demokratik ədibin adı ilə adlandırılır.*

***

*Dildə sadəlik, xəlqilik, danışıq dilinin bütün gözəlliklərini ədəbi dilə gətirmək, novellanı şirin, rəngarəng, duzlu maneralarla yazmaq, hər bir obrazın özünə münasib qısa dialoq vermək, izahdan qaçmaq – ədiblərin bədii xüsusiyyətidir.* ***Haqverdiyevin*** *dialoqlarındakı təbiilik, hazırcavablıq, qısalıq, formaca müxtəliflik sovet nasirləri üçün nümunədir.*

***

***İsmayıl bəy Qutqaşınlının*** *1835-ci ildə Varşavada çap olunan fransızca hekayəsi, bədii nəsr tariximizdə Avropa səpki-*

*sində yazılmış ilk hekayə sayıla bilər. Bu hekayədə diqqəti cəlb edən cəhət, Avropa romantik stili ilə Şərq nağıl və əfsanələrinə məxsus olan bakirliyin, spesifikanın, nəzakət qaydaları təsvirinin qəribə birliyidir. Tərənnüm olunan məhəbbətin təmizliyi, müqəddəsliyi ilə yanaşı, real zəminəsi, həqiqi imkanları, məişət ilə şərtlənməsi verilir.*

***

*O, keçən əsrin ortalarında feodal-patriarxal, müstəmləkə Azərbaycanın zülmətli üfüqlərində öz ölməz əsərləri və zəngin fikirləri ilə bir günəş kimi parladı.* ***Axundov****, Azərbaycan xalqının və bütün məzlum Şərqin ingilis-amerikan imperializmi əsarətindən qurtarması, müsəlman fanatizmindən, Şərq ətalətindən xilas olub mədəniyyət, nicat və inkişaf yoluna düşməsi üçün böyük rus xalqının, qabaqcıl rus mədəniyyətinin həlledici rolunu hələ o zaman görüb göstərmişdir.*

***

***Süleyman Sani*** *xalqımızı, həyat və məişətimizi çox gözəl bilirdi. Yalnız ictimai hadisələrdə deyil, təbiət səhnələrində də tarixi görür, xalqdan, məişətdən bir əlamət duyurdu. Süleyman Sani yaradıcılığında hiss, həyəcan üstündür, yəni ədibin çırpınan ürəyini, hadisə boyunca kədərini, sevincini, nifrətini və ya qəzəbini görürük. O, yalnız əli ilə deyil, həm də çırpınan qəlbilə yazırdı.*

*Azərbaycan teatr tarixində, sovet ədəbiyyatı və mədəniyyəti tarixində mühüm bir hadisə olan və Süleyman Saninin şəxsi iştirakı ilə yaranan və inqilabi təbliğat yolunda çox faydalı, tərbiyəvi iş görən "Tənqid və təbliğ" teatrı ədib üçün böyük yaradıcılıq tələbləri qoydu və imkanlar açdı.*

***

***Nəriman Nərimanov*** *dövrünün yorulmaq bilməyən, xalqına, vətəninə sədaqət və səmimiyyətlə xidmət edən fədakar mücahidi idi. Onun əsərləri XX əsr realist demokrat ədəbiyyatımızın yaxşı nümunələri kimi həmişə yaşayacaqdır.*

***

***Tolstoyun*** *sənətkar dühasının parlaq məhsulu və eləcə də bütün sənət xəzinəsinin ən gözəl əsərlərindən biri məşhur xalq epopeyası "Hərb və sülh" romanıdır. İndiyə qədər ədəbiyyatda misli görünməmiş bu romanda dahi ədib öz nəzəri görüşlərinə zidd gedərək bədii lövhələrlə göstərir ki, tarixi "seçilmişlər" yox, məhz "xalq" yaradır.*

***

***Mehdi Hüseyn*** *ədəbiyyatın qeyrətini çəkəndir. Mehdinin əsərləri hələ otuzuncu illərdən yayılmağa, diqqəti cəlb etməyə başlamışdı. Onun bir sıra həcmcə xırda, mövzu etibarilə əhəmiyyətli, məzmunca zəngin hekayələrindən istedadlı gənc bir qələm sahibinin səsi gəlirdi. Mən deyərdim ki, bu üslub hər kəsdən əvvəl Mehdinin öz orijinal üslubudur. Həm zəngin klassik ənənələrimizin, həm sürətlə inkişaf edən indiki ədəbiyyatımızın, həm də inqilabi mübarizə ilə zəngin müasir, canlı həyatımızın üzvi vəhdəti zəminəsində yaranan, sosialist realizmi istiqamətində inkişaf edən, özünəməxsus keyfiyyətlərlə seçilən bir üslubdur.*

***

*Yaradıcılıqda realist olmaq istəyənlər heç bir zaman axtarış və tədqiqatdan yorulmamalıdırlar. Yalnız istedad ilə kifayətlənənlər, öyünənlər yanılırlar. Həyat həqiqətinin dürüst inikası ancaq uzun, inadlı zəhmətin, bir məktəbli kimi ehtiraslı öyrənmə prosesinin nəticəsində əldə edilir.*

***

***Seyid Hüseyn də, Süleyman Sani də, Nəriman Nərimanov*** *da müəllim-ədib, yaxud ədib-müəllim olmuşlar. Xüsusilə, məktəbi, tərbiyə, təlim işini çox sevmiş, ömürlərinin mühüm hissəsini buna sərf etmiş, bədii əsərlərində də bu aləmi məhəbbət, məharətlə təsvir etmişlər.*

***

***Haqverdiyev*** *yeriyən Azərbaycançıdır.*

***

*Bir institutun görə bilmədiyi işi **Firidun bəy Köçərli** görmüşdür.*

***

***Müşfiq** nakam şairdir.*

***

*Böyük sənətkarlar **Nizamidi, Füzulidi, Sabirdi**, bizim kimilər isə sadəcə yazardı, söz fəhləsidi.*

***

*Yadında yaxşı saxla! Mühazirələri universiteti bitirəndən sonra da kitablardan oxuya biləcəksən. Bəlkə mənim mühazirəmdən daha sanballı kitablar, məqalələr də tapıb oxuyacaqsan. Amma məni, yəni mənim kimi müəllimləri tapa bilməyəcəksən. Biz ömür yolumuzu danışanda da, ailə-məişət söhbəti eləyəndə də, sizə yol göstərmək, istiqamət vermək məqsədi daşıyırıq. Bəlkə gələcəkdə kitablarda oxuduqlarınızla yanaşı, bizim həyat təcrübəmiz də sizə gərək oldu.*

***

*Həyat hadisələri ədəbiyyata bir hadisə, bir fakt kimi lazım deyil. Bu mənada faktlar, hadisələrlə elmi tədqiqat daha çox maraqlanır. Ədəbiyyatda, sənətdə isə bu hadisələrin natural təsviri yox, necə deyərlər, onların şirəsi, poeziyası, yüksək poeziyası lazımdır.*

***

*Cəmiyyət, insan həyatına qədər müxtəlif, zəngindirsə, onun bədii inikasını verməli olan sənətin də tarixi o qədər əlvan və zəngindir. Əsl ədəbiyyatın tarixində cəmiyyətin öz tarixini, maddi və mənəvi nemətlərini yaranma, istifadəedilmə tarixini müşahidə etmək mümkündür.*

***

*Hər bir tipik bədii obrazda yazıçının özü var. Bu baxımdan Bahar elə mənim özüməm.*

## Sadəlik və müdriklik
(Müəllim haqqında söz)

İlk dəfə Mir Cəlal müəllimi nə vaxt görmüşəm? – bu suala heç cürə cavab verə bilmirəm, çünki uşaqlıq çağlarımdan tutmuş yeniyetməlik, ilk gənclik dövrünəcən evdə də, cürbəcür məclislərdə, ədəbi toplantılarda da mən Mir Cəlal müəllimi çox görmüşəm.

İlyas Əfəndiyevlə Mir Cəlal müəllim arasında qarşılıqlı hörmətə söykənən mehriban bir münasibət var idi və mən elə o gözəl uşaqlıq illərində dəfələrlə bunun şahidi olmuşam ki, onlar hansı bir səmimiyyətlə görüşür, bir-biri ilə hal-əhval tuturdular. İlk baxışda müxtəlif xarakterli adamlar idi: Mir Cəlal müəllim daha artıq dərəcədə sakit, təmkinli, İlyas Əfəndiyev isə daha artıq dərəcədə emossional, bəzən hətta impulsiv.

Ancaq, yəqin, arada zahirən görünəndən qat-qat artıq daxili (görünməyən!) hiss-həyəcan, əqidə və amal yaxınlığı var idi və bu mənada, elə bilirəm ki, İlyas Əfəndiyevin hələ 1958-ci ildə Mir Cəlal müəllimin 50 illiyi münasibətilə yazdığı məqalədəki bu sözlər əlamətdardır: “Mir Cəlal bütün qəlbi ilə xalqa bağlı yazıçıdır. Onun əsərlərində xalqımızın nəcib ruhu duyulmaqdadır. Mir Cəlal, ilk növbədə, kiçik və çox adi görünən bir hadisədən böyük ictimai nəticələr çıxarmağı bacaran sənətkarlardandır. O, həyatın dərin qatlarına nüfuz edə bilmək iqtidarına malikdir. O, heç bir zaman gurultu, təntənə uydurmur” (“Ədəbiyyat və incəsənət”qəzeti, 26 aprel, 1958).

Xalqa belə bir bağlılıq, xalqın ruhunu ifadə etmək istəyi (və bacarığı!) insanlar arasındakı dediyim həmin daxili yaxınlıq da az rol oynamır.

Mən yazdım ki, Mir Cəlal müəllimi ilk dəfə nə zaman gördüyüm yadıma gəlmir, amma onu bir müəllim, bir professor kimi

kəşf etdiyim gün dəqiq yadımdadır və heç zaman da yadımdan çıxmayacaq: 1 sentyabr 1960-cı il.

Artıq ün yetməz, səs çatmaz bir uzaqlıqda qalmış o 1 sentyabr günü – Bakı Dövlət Universiteti filologiya fakültəsinin (məşhur Nizami 49) birinci kursunda mənim ilk dərs günüm – Mir Cəlal müəllim bizim auditoriyaya daxil oldu, ədəbiyyat nəzəriyyəsindən dərs deməyə başladı və mən yaxşı tanıdığım, əsərlərini oxuduğum bu məhrəm adamı bir müəllim, professor kimi məhz kəşf etdim.

Mən Mir Cəlal müəllimin müasirləri və mənim yaxından tanıdığım Həmid Araslı, Məmməd Cəfər, Məmməd Arif kimi böyük qələm sahibləri haqqında yazdığım yazılarda, yadıma gəlir, bir ifadə işlətmişəm: sadəliyin müdrikliyi və o ifadə Mir Cəlal müəllim üçün də, məncə, çox səciyyəvidir, çünki onun mühazirələri də, bədii və elmi əsərləri də sadəliyin arxasında dayanan müdrikliyin ifadəsi idi. O, təbiəti etibarilə necə sadə idisə, danışığı da, elmi və bədii təhkiyyəsi də eləcə sadə idi və əsas məsələ burasındadır ki, onun həm şəxsiyyətində, həm də yaradıcılığındakı o sadəlik qətiyyən primitivlik yox, müdrikliyin nəticəsi idi.

Bəzən, Mir Cəlal müəllim obrazlı danışanda da onun bənzətmələri sadə, dəqiq və aydın olurdu, ifadə etmək istədiyi fikri, mülahizəni görümlü edirdi. Yadıma gəlir, bir dəfə – onda mən artıq aspirant idim – onun rəhbərlik etdiyi kafedrada söhbət edirdik və söz indiki kimi, elə o zaman da hər tərəfi bürümüş “ədəbi məktular”ından düşdü, mən bir gənclik ehtirası ilə istedadsız, amma rəsmi ideologiyanın təqdir və təbliğ etdiyi bu yazılara qarşı qızğın bir monoloq söyləyəndə, Mir Cəlal müəllim qolumdan tutub, ancaq ona məxsus olan bir təbəssümlə:

– Qardaş, – dedi (“qardaş” onun çox xoşladığı söz idi), qızıl da, xəzəl də eyni rəngdədi. Qızıl ağır olduğu üçün, dibə çökür, hər tərəfi sapsarı xəzəl basır, – sonra da həmişəki kimi astadan gülə-gülə: – Sən bu camaatdan nə istəyirsən?! – dedi.

Yeri düşmüşkən, deyim ki, Mir Cəlal müəllimin rəhbərlik etdiyi (əslində, ağsaqqallıq etdiyi, marağı ilə yaşadığı) həmin

kafedra Azərbaycan ədəbiyyatı tarixi kafedrası adlanır, amma elə o vaxt da, aradan keçən bu qədər illərdən sonra (o, 1978-ci il sentyabrın 28-də, 70 yaşında vəfat etdi), bu gün də o kafedra "Mir Cəlal müəllimin kafedrası" kimi tanınır və yəqin Mir Cəlal müəllimin ruhu bundan şad olur. Vaxtıyla onun tələbələri, aspirantları olmuş cavanlar bu gün orada professordur və yəqin Mir Cəlal müəllimin ruhu buna görə də şad olur ki, onun nəvəsi Nərgiz Paşayeva da artıq neçə vaxtdır ki, o kafedranın professorudur.

Mən universiteti bitirdikdən sonra Elmi Şuranın qərarı ilə aspiranturaya saxlandım, amma universitetin yox, Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil oldum, elmi rəhbərim isə Mir Cəlal müəllim oldu və o üç ildə ki, mən "Azərbaycan bədii nəsri ədəbi tənqiddə (1945-1965)" mövzusunda namizədlik dissertasiyasını işlədim, Mir Cəlal müəllimi daha artıq hiss etdim, onun şəxsiyətinin xüsusiyyətlərini, xasiyyətinin çalarlarını daha yaxından gördüm.

İki cəhəti xüsusi qeyd etmək istəyirəm.

Mir Cəlal müəllim klassik ədəbiyyatımızın tədqiqatçısı idi: bir tərəfdən Füzuli ("Füzulinin poetik xüsusiyyətləri", sonradan daha da təkmilləşdirdiyi "Füzuli sənətkarlığı" monoqrafiyası), o biri tərəfdən də XX əsrin başlanğıcındakı ədəbiyyatımız, ilk növbədə Mirzə Cəlil, Sabir, Ə.Haqverdiyev, Nəriman Nərimanov, Məhəmməd Hadi və b. ("XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyi, "Azərbaycanda ədəbi məktəblər (1905-1917)", "Cəlil Məmmədquluzadənin realizmi haqqında" kimi monoqrafiyaları, bir çox məqalələri), yəni dediyim odur ki, quru elmi təbirə görə, Mir Cəlal müəllimin "ixtisaslaşması" klassik ədəbiyyata aid idi, mən isə tamam müasir mövzunu işləyirdim, həm də bu müasirlik mənim üçün yalnız tarixi dövr göstəricisi deyildi, bəlkə daha artıq dərəcədə estetik bir kateqoriya idi və aradan keçən bu qədər ildən sonra tam səmimiyyətlə deyirəm ki, Mir Cəlal müəllim ayrı-ayrı mərhələlərlə yox, böyük Ədəbiyyatla məşğul olduğu üçün, eyni zamanda çox güclü fəhminə görə sənətdə müasirliyi müasir ədəbiyyat üzrə "ixtisaslaşmış" bir çox ədəbiyyatşünas və tənqidçilərdən daha artıq duyur və qiymətləndirməyi bacarırdı.

İkinci cəhət isə Mir Cəlal müəllimin – bu mülayim və qayğıkeş insanın – şəxsiyyətindəki cəsarət idi. Mən elmi işimlə bağlı yazdığım məqalələrdə o dövrün çox görkəmli (və toxunulmaz!), məşhur simalarını ədəbiyyata vulqar-sosioloji münasibətlərinə görə kəskin tənqid edirdim və yazdıqlarımı oxumaq üçün ilk növbədə Mir Cəlal müəllimə verirdim, bəzən də onun “Alimlər Evi”ndəki mənzilinə gedib özüm o məqalələri ona oxuyurdum, məhz onun tövsiyəsi ilə o yazılar universitetin “Elmi əsərlər”ində çap olunurdu. O, mülayim insan isə ağrımayan başını ağrıtmaqdan qətiyyən çəkinmirdi, çünki onun üçün ədəbiyyatın marağı zəmanənin siyasi-inzibati hürküsündən, “ədəbiyyat generallarının” tənəsindən, bəzi tənqidçilərin “intiqam almaq” (yəni onun əsərlərini şəxsi-qərəzliklə tənqid etmək) kin-küdurətindən çox üstün idi və bunu açıq şəkildə göstərməyə onun cəsarəti çatırdı.

Mir Cəlal müəllimin istəkli tələbələrindən biri, rəhmətlik professor Firudin Hüseynovun vaxtıyla mənə danışdığı bir söhbət yadıma düşür. Firudin aspirant olduğu vaxtlar – əllinci illərin ortalarında – bir axşam Mir Cəlal müəllimlə dənizkənarı bulvarda gəzəndə, birdən Kirovun projektor işığı altında işıldayan və o zaman həmişəlik (əbədi!) görünən heykəlini göstərib soruşur:

– Mir Cəlal müəllim, sizcə o heykəlin yerində kimin heykəlini qoymaq olardı?

Rəhmətlik Firudin deyirdi ki, heç özüm də bilmədim, bu sualı necə verdim, bu sözlər ağzımdan necə çıxdı. Deyirdi, bu qəfil sualı verdim, o saat da bütün bədənimi bir həyəcan bürüdü.

Əlbəttə, Firudinin həyəcanını başa düşmək çətin məsələ deyil, söhbət KQB-nin, hakim sovet rəsmi-inzibati ideologiyasının fironluq elədiyi bir dövrdən gedir, Sergey Mironoviç Kirov da həmin ideologiyanın mütləq qəhrəmanı vəzifəsini daşıyan mif, onun Bakının ən görümlü bir yerində ucaldılmış heykəli isə Sovet hakimiyyətinin, Stalin quruluşunun – Sistemin rəmzlərindən biri idi.

Bəs, Mir Cəlal müəllimin – təkrar edirəm, bu mülayim və təmkinli adamın o qorxulu suala reaksiyası necə olur?

Mir Cəlal müəllim Firudinin qolundan tutub bir an dayanır və Kirovun heykəlinə baxa-baxa:

– Qardaş, – deyir, – kim o heykəli oradan yıxa bilsə, onun da heykəlini orda qoymaq lazımdı!

Qardaşın-qardaşa etibar etmədiyi, divarın da qulağı olduğu bir zəmanədə Mir Cəlal müəllimin cavan bir aspiranta verdiyi bu cavab, əlbəttə, daxili cəsarətdən, eyni zamanda, onun zəmanəyə daxili münasibətindən xəbər verir və bu da təsadüfi deyildi ki, bir çoxlarının sosializm-realizmi ədəbi metoduna qulluq edib, estetikanı, nəzəriyyəni saxta və vulqar sosioloji hökmlərə qurban verərək, konyukturadan eninə-uzununa bəhrələndiyi bir vaxtda, dəhşətli 37-ci il qasırğası zamanında, əhli-qələmin bir-birinə siyasi-sosioloji ittihamlar verdiyi bir dövrdə Mir Cəlal müəllim Füzulini təhlil edirdi, Mirzə Cəlilin tədqiqi ilə məşğul olurdu, əsrin əvvəllərində Azərbaycanda fəaliyyət göstərən ədəbi məktəbləri araşdırırdı.

Keçən il – 60 ildən sonra "Azərbaycanda ədəbi məktəblər" kitabı yenidən nəşr edildi və ədəbi ictimaiyyət bu nəşri yüksək qiymətləndirdi, onun ədəbi-elmi aktuallığına diqqət yetirdi, amma bu günün ədəbi ictimaiyyəti (və oxucusu!), məlum məsələdir, 60 il bundan əvvəlin, Stalin dövrünün ədəbi ictimaiyyəti deyil. Baxaq, görək, o zamanın çoxmu elmi əsərlərini alın açıqlığı ilə bu günün oxucularına təqdim etmək olar?

Bir faktı da qeyd etmək istəyirəm: mən 20-ci illərdən üzü bu tərəfə Azərbaycan mətbuatını nömrə-nömrə vərəqləmişəm və bir çox müasirlərindən fərqli olaraq, Mir Cəlal müəllimin hansısa "xalq düşməni" olan bir yazıçını (yəni Cavidi, Cavadı, Çəmənzəminlini, Müşfiqi, Mümtazı, Kantemiri, Seyid Hüseyni, Əli Nəzmini, Bəkir Çobanzadəni, Hənəfi Zeynallını, sonralar Heydər Hüseynovu və b.) "ifşa" edən, ədəbiyyatda, elmdə "ziyanvericilik" axtaran bircə yazısına da rast gəlməmişəm.

Bu günün oxucusu hesab edə bilər ki, (və əslində, düz də edər) hərgah insan bir başqasına böhtan atmırsa, qara yaxmırsa, burada nə şücaət var? Amma 37-ci il kontekstində, o ab-havada bu sualın cavabı elə də sadə deyil...

Mənim ən unudulmaz uşaqlıq xatirələrimdən biri "Bir gəncin manifesti" romanının motivləri əsasında Gənc Tamaşaçılar Teatrındakı tamaşada Baharın – bu Azərbaycan Qavroşunun taleyinə görə keçirdiyim hiss-həyəcanla bağlıdır. Mən o tamaşaya dəfələrlə baxmışdım və Bahar mənim üçün o qədər doğma bir məxluqa çevrilmişdi, bu bədii surətin mahiyyətindəki kədərli lirika onun emossional təsir gücünü o qədər artırmışdı ki, elə bil, onun o acı taleyi əsər qəhrəmanının yox, bizim – mən də daxil olmaqla, Bakının Mirzə Fətəli küçəsindəki məhəllə uşaqlarının hamısının yaşadığı bir taledir.

Söz belə gətirdi ki, mən Mir Cəlal müəllim haqqında bir alim, müəllim kimi danışıram, amma Mir Cəlal müəllim, eyni zamanda, XX əsr Azərbaycan nəsrinin yükünü çiyinlərində daşıyan görkəmli yazıçılarımızdan biridir. O, ədəbiyyatşünas-alim kimi Mirzə Cəlili, Haqverdiyevi öyrəndiyi və öyrətdiyi kimi, bir yazıçı kimi də onların bədii-estetik ənənələrini davam və inkişaf etdirirdi. Mir Cəlal müəllimin hekayələrində həmin ənənələrin duzunu hiss etmək, elə bilirəm ki, çətin bir iş deyil.

Ümumiyyətlə, Cəlil Məmmədquluzadə yaradıcılığının və şəxsiyyətinin tədqiq və təbliğində Mir Cəlal müəllimin müstəsna rolu var və bu işə o, hələ 30-cu illərdən başlamışdı, bununla da bizim – 60-cı illər ədəbi nəslinin Mirzə Cəlilə xüsusi münasibəti üçün münbit zəmin yaratmışdı. Onun üçün Mirzə Cəlil, bəlkə də, ən böyük yazıçı idi və kim ki, Mirzə Cəlili başa düşürdü, qiymətləndirməyi bacarırdı, sevirdi, o adam da Mir Cəlal müəllim üçün gözəl bir insan idi.

"Dirilən adam", "Bir gəncin manifesti", "Açıq kitab", "Yaşıdlarım", "Təzə şəhər", xüsusən Sabirin həyatından bəhs edən "Yolumuz hayanadır" romanları bu janrın ədəbiyyatımızın milli faktoruna çevrilməsində, nəsrimizin, ədəbi-bədii dilimizin formalaşması və inkişafı işində ciddi rol oynamışdır. Əlbəttə, bu əsərləri yarandıqları dövrün mürəkkəb və ziddiyyətli kontekstindən çıxarmaq olmaz, amma, baxın, 1935-ci ildə yazılmış "Dirilən adam" romanı 70 ildən sonra Akademik Milli Dram Teatrında səhnələşdirilmişdir və burada xarakterlər, insan taleləri,

təsvir olunan hadisələr, situasiyalar öz bədii kəsərini və aktuallığını nə qədər saxlamışdır.

Mir Cəlal müəllimin xasiyyəti elə idi ki, ona razılıq bildirmək, təşəkkür etmək mümkün deyildi, o saat sənin qolundan tutub: "Qardaş, başqa şey danış!..." – deyirdi və buna görə də mən Mir Cəlal müəllim haqqındakı bu kiçik yazını bir sitatla yekunlaşdırmaq istəyirəm, bununla, bəlkə də təvazökarlıqdan kənara çıxıram, amma elə bilirəm ki, aradan ötən illərin sayı mənə belə bir səlahiyyət verir.

1969- cu ildə Mir Cəlal müəllim mənim ilk böyük elmi işim – namizədlik dissertasiyamdan ("Tənqid və nəsr" monoqrafiyası) bəhs edərək yazırdı: "Elçin hələ universitetdə təhsil alarkən, mənim tələbəm olmuş, geniş dünyagörüşü, istedadı, fəallığı ilə diqqətimi cəlb etmişdir. Sonralar aspiranturada oxuyarkən, onun bu keyfiyyətləri daha da inkişaf etmiş və o, yaxşı bir müasir ədəbiyyatşünas – mütəxəssis kimi yetişmişdir... Təsadüfi deyil ki, onun bədii ədəbiyyatın bir sıra digər məsələlərinə aid məqalələri də professional səviyyəsi ilə diqqəti cəlb edir. Ümumiyyətlə, deməliyəm ki, Elçinin əsəri müəllifin tədqiqat bacarığını, elmi işdəki məharətini göstərməklə, həmin dövrün tənqid aləminə ayıq bir nəzər baxımından qiymətli və əhəmiyyətlidir. Güman edirəm ki, cavan alimin bu əsəri Elmi Şuramızda ləyaqətli qiymətini alacaq və çap olunarsa, oxucularımıza, ədəbiyyat maraqlılarına əhəmiyyətli bir vəsait olacaq" (Elçin. Tənqid və nəsr. Bakı, 1999, səh. 212).

25-26 yaşlı cavan bir oğlan haqqında deyilmiş və bu gün mənim üçün çox əziz olan bu sözlərə, yaza bildiyim o ilk elmi işə, ən başlıcası isə, bu sözlərin arxasında dayanmış və uzun-uzun illər keçdiyinə baxmayaraq, mənim üçün qətiyyən saralıb-solmamış o xeyirxahlığa, qayğıkeşliyə, köməyə görə, o istiqanlılığa görə düz 36 ildən sonra, bu yazının verdiyi fürsətdən də istifadə edib, ona ürəyimin dərinindən gələn: "– Çox sağ olun, Mir Cəlal müəllim!" – deyirəm.

**Elçin,**
*Xalq yazıçısı*

# I HİSSƏ

# ƏSƏRLƏRİ

## Kitabları

### 1932

**1. Sağlam yollarda:** oçerklər /Mir Cəlal; red. Ə.Sadıq.- Bakı: Azərnəşr, 1932.- 46 s.

***Kitabın içindəkilər***: Sağlam yollarda; Qələbənin açarı: [Toxuculuq sənəti haqqında]; Molotovçular; Səsimizi dünya eşitsin: [pambıqçılar haqqında]; Özək raport verir; Münəvvəri dinləyin; İşləməyən dişləməz; Bayrağı bərk saxla; Volqanın qucağında; Zavodun tərcümeyi-halı: [Mis zavodu haqqında]; Marksın dostu.

### 1935

**2. Boy:** novellalar /Mir Cəlal; red. S.Rəhman.- Bakı: Azərnəşr, 1935.- 123 s.

***Kitabın içindəkilər***: Sara; Mirzə; Kartoşka məsələsi; Matışgə; Yanlış barmaqlar; Letun; "Myaxqıy"; Pölük; İfşa; Göz; Təzə toyun nəzakət qanunları; And; Mustafa; Analar yarışı; İşıqlı yollarda; Gəldiyev gəldi.

**3. Dirilən adam:** roman /Mir Cəlal; red. Azəri.- Bakı: Azərnəşr, 1935.- 204 s.

Əsər 1918-1920-ci illərdə Azərbaycan zəhmətkeşlərinin qəhrəman mübarizəsinə həsr olunub.

### 1937

**4. Bostan oğrusu:** hekayələr /Mir Cəlal; red. Ə.Fevzi.- Bakı: Azərnəşr, 1937.- 46 s.

***Kitabın içindəkilər***: Bostan oğrusu; Təzə toyun nəzakət qanunları.

**1938**

**5. Axundun iştəhası:** hekayələr /Mir Cəlal; red. B.Musazadə.- Bakı: Azərnəşr, 1938.- 68 s.

***Kitabın içindəkilər***: Axundun iştəhası; Ziyarət; Pölük.

**6. Ədəbiyyat:** natamam orta və orta məktəbin 5-ci sinfi üçün /Həmid Araslı, M.C.Paşayev; red. M.Rzaquluzadə.- Bakı: Azərtədrisnəşr, 1938.- 132, [4] s.

**1939**

**7. Füzulinin poetik xüsusiyyətləri**: filoloji elmlər namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya /Mir Cəlal; S.M.Kirov adına ADU.- Bakı, 1939.- 133 s.

**8. Gözün aydın:** hekayələr və oçerklər /Mir Cəlal; red. B.Musayev.- Bakı: Azərnəşr, 1939.- 447 s.

***Kitabın içindəkilər***: Gözün aydın; Badamın ləzzəti; Nanənin hünəri; Bostan oğrusu; Təzə toyun nəzakət qaydaları; İstifadə; Matışgə; Kərpic məsələsi; Yanlış barmaqlar; Göz; Letun; Heyrət; Kartoşka məsələsi; Mirzə; Sara; Mərkəz adamı; Kağızlar aləmi; Həkim Cinayətov; Pərzad; "Myaxqıy"; Sınaq günü; İlk günlər; Qüdrət nümayişi; Ana; Dəzgah qızı; Oğul; Hacının xəyalı; Möhlətovun tərcümeyi-halı; Dostumun qonaqlığı; Kimya tələsir; Mərifət dərsi; Mənim parlamentim; İgid oğlan; Səfər; Hikmətdən xəbər; İlhamın anası; Azad qız; And; Almas gəldi; Analar yarışı; Sağlam yollarda; Qələbənin açarı; İşləməyən dişləməz; Volqanın qucağında; Zavodun tərcümeyi-halı; Marksın dostu; Münəvvəri dinləyin; Bayrağı bərk saxla; Səsimizi dünya eşitsin; Özək raport verir; İşıqlı yollarda.

**1940**

**9. Bir gəncin manifesti:** povest /Mir Cəlal; rəss. K.Kazımzadə.- Bakı: Uşaqgəncnəşr, 1940.- 258 s.

Povest Sovet quruculuq illərində Azərbaycan zəhmətkeşlərinin qəhrəman mübarizəsinə və kimsəsiz, məzlum insanların acı həyatına həsr olunub.

**10.Füzulinin poetik xüsusiyyətləri** /Mir Cəlal; Nizami ad.

Ədəbiyyat və Dil İn-tu.- Bakı: SSRİ EA Azərbaycan filialının nəşri, 1940.- 96 s.

Əsərdə böyük şairin sənətə, şeirə baxışı verilir. Onun bədii dil xüsusiyyətləri, söz ehtiyatı, xalq dilindən necə istifadə etməsi, təsvir və ifadə vasitələrindən ətraflı bəhs olunur. Şairin lirikasında insan hiss və fikirlərinin dərin və mükəmməl əhatəsi göstərilir. Füzulinin Azərbaycan şeirini çox yüksək pilləyə qaldırdığını isbat edir.

*Kitabın içindəkilər*: Şeirə baxışı; Lirikası; Bədii dili; Peyzajları; Şeir kulturası.

**1941**

**11. Xalqın ürək sözü** /Mir Cəlal; red. M.C.Cəfərov.- Bakı: Azərnəşr, 1941.- 18 s.

Kitabçada ədib xalq nağıllarının qəhrəmanlarının timsalında xalqımızın bütün tarix boyu öz azadlığı, öz müstəqilliyi, öz səadəti uğrunda apardığı mübarizələri nəzərə çatdırır.

**1942**

**12. İlyas**: ortayaşlı uşaqlar üçün /Mir Cəlal; red. Ə.Abasov.- Bakı: Azərnəşr, 1942.- 20 s.

**13. İsrafil:** ortayaşlı uşaqlar üçün /Mir Cəlal; red. M.Arif.- Bakı: Uşaqgəncnəşr, 1942.- 26 s.

**14. Şərbət:** böyükyaşlı uşaqlar üçün /Mir Cəlal; red. Ə.Abasov.- Bakı: Uşaqgəncnəşr, 1942.- 56 s.

***Kitabın içindəkilər***: Şərbət; Ana; Vuran əllər; Ananın yarışı; Çəkmə.

**15. Vətən hekayələri** /Mir Cəlal; [red. Z.Xəlil].- Bakı: Azərnəşr, 1942.- 40 s.

***Kitabın içindəkilər***: Yollar; Ananın köynəyi; Havalı adam; Mərcan nənə; Boz adam; Anaların üsyanı; Qardaş qanı; Yol açıqdır.

**1943**

**16. Muştuluq:** hekayə /Mir Cəlal; Azərbaycan Sovet Yazıçıları İttifaqı.- Bakı: Azərnəşr, 1943.- 11 s.- Qızıl əsgər kitabxanası seriyası.

**17. Vətən yaraları** /Mir Cəlal; Azərbaycan Sovet Yazıçıları İttifaqı.- Bakı: Azərnəşr, 1943.- 11 s.- Qızıl əsgər kitabxanası seriyası.

**1944**

**18. Vətən:** hekayələr /Mir Cəlal; red. H.Mehdi.- Bakı: Azərnəşr, 1944.- 152 s.

***Kitabın içindəkilər***: Yollar; Qardaş qanı; Boz adam; Atlı; Göylər adamı; Axşam səfəri; Ata; Snayper; Şərbət; Baldan əvvəl; Odlu mahnılar; Anaların üsyanı; Vətənin oğlu; Çəkmə; Səfər; Qafqaza məktub; Havalı adam; Mərcan nənə; Şahin və Sona; Ananın yarışı.

**1945**

**19. Həyat hekayələri** /Mir Cəlal; red. H.Orucəli.- Bakı: Uşaqgəncnəşr, 1945.- 156 s.

***Kitabın içindəkilər***: Şəxsi məsələ; Tamaşa; Vətən oğlu; Həkim hekayələri; Söyüd kölgəsi; Kəmtərovlar ailəsi.

**1946**

**20. Azərbaycan ədəbi məktəbləri (1905-1917-ci illər):** filoloji elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya /Mir Cəlal; S.M.Kirov adına ADU.- Bakı, 1946.- 492 s.

**1947**

**21. İki rəssam:** [Məzmunu Nizaminin "İsgəndərnamə" poemasından alınmışdır] /Mir Cəlal.- Bakı: Uşaqgəncnəşr, 1947.- 10 s.

**1948**

**22. Yaşıdlarım:** povest /Mir Cəlal; red. H.Əfəndiyev.- Bakı: Uşaqgəncnəşr, 1948.- 142 s.

Povestdə Azərbaycan xalqının Böyük Vətən müharibəsi illərində göstərdiyi vətənpərvərlikdən bəhs edilir.

**23. Yeni kəndin adamları:** oçerklər /Mir Cəlal; red. H.Mehdi.- Bakı: Azərnəşr, 1948.- 44 s.

***Kitabın içindəkilər***: Kolxoz işinin mahir ustası; Vətən qızı Sədaqət; Yeni kənd; İrəliyə baxmaq lazımdır.

**1949**

**24. Bir gəncin manifesti:** povest /Mir Cəlal; red. R.Quliyev.- Bakı: Uşaqgəncnəşr, 1949.- 230 s.

Əsərdə Bahar adlı yetim, kimsəsiz oğlanın ağır həyatından, mənhus köhnə, zülm və haqsızlıq dünyasının qurbanı olduğundan söhbət açılır.

**25. İlk vəsiqə:** kiçikyaşlı uşaqlar üçün hekayələr /Mir Cəlal; red. Ə.Babayeva.- Bakı: Uşaqgəncnəşr, 1949.- 24 s.

***Kitabın içindəkilər***: İlk vəsiqə; İftixar; Gözətçi; Aqil.

**1951**

**26. Söyüd kölgəsi:** azyaşlı uşaqlar üçün hekayələr /Mir Cəlal; red. H.Xalidə.- Bakı: Uşaqgəncnəşr, 1951.- 20 s.

***Kitabın içindəkilər***: Söyüd kölgəsi; Gülgəz.

**27. Təzə şəhər**: roman /Mir Cəlal; red. Yusif Əzimzadə.- Bakı: Azərnəşr, 1951.- 264 s.

Roman Sumqayıt şəhərinin böyük quruculuq illərinə həsr olunub.

**1953**

**28. Bir gəncin manifesti:** povest /Mir Cəlal; red. N.Babayev.- Bakı: Uşaqgəncnəşr, 1953.- 248 s.

Əsər Azərbaycanda baş verən vətəndaş müharibəsindən, Bahar adlı yetim, kimsəsiz oğlanın ağır həyatından, mənhus, köhnə, zülm və haqsızlıq dünyasınnın qurbanı olduğundan bəhs edir.

**29. S.M.Kirov adına ADU-nun filoloji fakültəsi üçün ədəbiyyatşünaslıq kursu üzrə proqram** /Mir Cəlal.- Bakı: ADU-nun nəşri, 1953.- 10 s. (Əlyazması hüququnda)

**1955**

**30. Sadə hekayələr** /Mir Cəlal; red. Ş.Abbasov.- Bakı: Azərnəşr, 1955.- 238 s.

***Kitabın içindəkilər***: Göylər adamı; Baldan əvvəl; Muştuluq;

Xəbər-ətərsiz; Vətən yaraları; Ər və arvad; Dissertasiya; Çıraqlar yandı; Silah qardaşları; Od içindən çıxanlar; Ailə; Oğul; Aqil; İftixar; Gənc usta; Yaradan əllər; Çin qızı; Gilasın sevinci; Badam ağacları; Əsgər oğlu; Gərək olar; Mərdimazar; Balacalara hədiyyə; Ulduz; Özgə uşağı.

**31. Yaşıdlarım:** roman /Mir Cəlal; red. Y.Əzimzadə.- Bakı: Uşaqgəncnəşr, 1955.- 224 s.

Roman Böyük Vətən müharibəsi illərində Azərbaycan gənclərinin həm cəbhə bölgələrində, həm də arxa cəbhədə fədakarlıqlarından bəhs edir.

**1956**

**32. Seçilmiş əsərləri:** 2 cilddə /Mir Cəlal; red. N.Nağıyev.- Bakı: Azərnəşr, 1956.- Cild 1.- 500 s.

***Kitabın içindəkilər:*** Dirilən adam; Həkim Cinayətov; Mirzə; İlk günlər; İstifadə; Sara; Təzə toyun nəzakət qaydaları; Göz; Kərpic məsələsi; Dəzgah qızı; Bostan oğrusu; Ayaz; Qaymaq; Dostumun qonaqlığı; Gözün aydın; Badamın ləzzəti; Nanənin hünəri; Hikmətdən xəbər; Səfər; Vətən oğlu; Kəmtərovlar ailəsi; İgid oğlan; Anket Anketov; Söyüd kölgəsi; Məşriq; Şərbət; Leyla; İki rəssam; Sülh istəyənlər; Hesab dostları; Plovdan sonra; Qonaqpərəst; Dost görüşü; Vicdan əzabı; Gülgəz; Qorxu; Kimya tələsir; İlhamın anası; Susuzluq; Gözətçi; İlk vəsiqə; Müəllif haqqında bioqrafik məlumat.

**33. Yuxu və külək:** kiçikyaşlı uşaqlar üçün /Mir Cəlal; red. G.Həsənzadə.- Bakı: Uşaqgəncnəşr, 1956.- 11 s.

**1957**

**34. Seçilmiş əsərləri**: 2 cilddə /Mir Cəlal; red. N.Nağıyev.- Bakı: Azərnəşr, 1957.- 2-ci cild.- 532 s.

***Kitabın içindəkilər***: Açıq kitab; Pərzad; Hilal dayı; Müalicə; Yollar; Qardaş qanı; Boz adam; Atlı; Şahin və Sona; Odlu mahnılar; Havalı adam; Mərcan nənə; Titrək bir səs; Göylər adamı; Axşam səfəri; Ata; Baldan əvvəl; Ananın yarışı; Muştuluq; Xəbər-ətərsiz; Ailə; Oğul; Çıraqlar yandı; Od içindən çıxanlar; Silah

qardaşları; İmtahan; Aqil; İftixar; Ər və arvad; Çin qızı; Gərək olar; Badam ağacları; Əsgər oğlu; İki fermer; Özgə uşağı; Ulduz; Özündən naxoş; İclas qurusu; Qotazlı çəkmə; Elçilər qayıtdı.

**35. Yolumuz hayanadır:** roman /Mir Cəlal; red. G.Hüseyn-oğlu.- Bakı: Uşaqgəncnəşr, 1957.- 224 s.

Romanda xalqımızın böyük oğlu M.Ə.Sabirin həyat və yaradıcılığından Azərbaycan xalqının mülkədar və kapitalistlər hakimiyyətinə qarşı yüksəlməkdə olan inqilabi mübarizəsinin müəyyən dövründə söhbət açılır.

## 1958

**36. Füzuli sənətkarlığı** /Mir Cəlal; red. Həmid Araslı.- Bakı: ADU-nun nəşri, 1958.- 276 s.

***Kitabın içindəkilər***: Müəllifdən; Başlanğıc; Füzuli şeir haqqında; Qəzəllər haqqında; Bədii dil xüsusiyyətləri; Mənzərələr; Şeir mədəniyyəti; Texnika; Bədii məntiq; Lirika; Bədii nəsr; "Rind və Zahid"; Nizami və Füzuli; Ölməz məhəbbət dastanı; Füzulidə alleqoriya; Böyük mənəvi müasirimiz.

## 1961

**37. İnsanlıq fəlsəfəsi** /Mir Cəlal; red. Ş.Abbasov.- Bakı: Azərnəşr, 1961.- 406 s.

***Kitabın içindəkilər***: Mərkəz adamı; Ayaz; Peşmançılıq; Söyüd kölgəsi; Əməli saleh; Mərcan nənə; Badam ağacları; Əskinasın tarixi; İki fermer; Subaylıq fəlsəfəsi; Hava bürosu; İnsanlıq fəlsəfəsi; Tövbələtmə; İlk hədiyyə; Qocaların uşaq söhbəti; Vətən yaraları; İki ananın bir oğlu; Mənim də haqqım var; Salam; Oğul; Çin qızı; Döyüşçünün dedikləri; Qaymaq; Təzə toyun nəzakət qaydaları; Bostan oğrusu; Dostumun qonaqlığı; Təsadüf; Anket Anketov; Kəmtərovlar ailəsi; Hesab dostları; Plovdan sonra; İtpərəstlərin həyəcanı; O dünyada; Ulduz; Elçilər qayıtdı; Nazik mətləb; Ürəkdə yazı; Vicdan mühakiməsi; Dağların qəlbi; Neçə cür salam var?; Təsadüf ya zərurət; Ərik ağacı; Müalicə; Vicdan əzabı; Dost görüşü; Qonaqpərəst; Titrək bir səs; Lirika; Əl xətti; İki hakim; Mən də bakılıyam; Xəcalət;

Sancaq fabrikində; Havapərəstlər; Kəhərin son günləri; Zəhmət, Əqil, Bəxt.

**1962**

**38. Xatirə hekayələri** /Mir Cəlal; red. R.Şıxəmirova; müqəd-ddimə Bəkir Nəbiyevindir.- Bakı: Uşaqgəncnəşr, 1962.- 147 s.

***Kitabın içindəkilər***: Ərəb qardaş; Ömrün mənası; Gənc şairin ərizəsi; Səyyah xanım; Ləyaqət; Xarici naxoşluq; Gülbəsləyən qız; Ehtiram; Qəbul imtahanı; Naxış; Ərəb qızı; Ərik ağacı; Mən zaminəm; Təsadüf ya zərurət; Sözün yeri var; Şapalaq; Dil və əməl; Heykəl ucalanda; İki qız bir oğlan; Mənim "səmimi dostum"; Mənim vəfalı maşınım; Rola girib; Yad adam; Yalan yerimæz.

**1964**

**39. Bir gəncin manifesti; Yaşıdlar** /Mir Cəlal; red. G.Həsənzadə.- Bakı: Azərnəşr, 1964.- 451 s.

**40. Yaşıdlar:** povest /Mir Cəlal.- Bakı: Uşaqgəncnəşr, 1964.- 260 s.

**1965**

**41. Gülbəsləyən qız:** hekayələr /Mir Cəlal; red. Z.Qiyasbəyli.- Bakı: Azərnəşr, 1965.- 334 s.

***Kitabın içindəkilər***: Ərəb qardaş; Ömrün mənası; Gənc şairin ərizəsi; Səyyah xanım; Ləyaqət; Xarici naxoşluq; Gülbəsləyən qız; Ehtiram; Qəbul imtahanı; Naxış; Ərəb qızı; Ərik ağacı; Mən zaminəm; Təsadüf ya zərurət; Sözün yeri var; Şapalaq; Dil və əməl; Mənim vəfalı dostum; Heykəl ucalanda; İki qız bir oğlan; Mənim "səmimi dostum"; Rola girib; Yad adam; Yalan yerimæz; Müdafiə vəkili; Ay İsmayıl, başa sal!; Qanadlı qızlar; Telefon dostum; O yana baxın; Paho, pahoo vay; El xadimləri; Öyrən-cəkli; İngilis dili; Şərait yoxdur; Yaylaq məsələsi; Xoşbəxtlik barəsində; Müsəlmanlıq və texniki tərəqqi; Hərənin öz işi var; İmzasız hekayə; Məhəbbət yaxud qəlp pul; Maşında; Radio qabağında; Ədəbi söhbət; Niyə ovdan ayaq çəkdim; Xəzinədar; Düşünmək istəyirəm; Turşuqeyrət; Az danışmağın faydası; Mə-

nim dilmancım; Düz adam; Bacı-qardaş; Pillələr; Gör fələk nə sayır; Məni görmürsünüz?; Biri var idi, ikisi yox...; Mən deyən; Mən necə həkimlik öyrəndim; Şirin söhbət; Qulluqçu haqqında; Ana məsləhəti; Parisdə görüş.

**42. Söyüd kölgəsində:** hekayələr /Mir Cəlal; red. İ.Hümmətov.- Bakı: Maarif, 1965.- 42 s.

***Kitabın içindəkilər***: Ərik ağacı; Gülbəsləyən qız; Söyüd kölgəsində; Zəhmət, Əqil, Bəxt; Plovdan sonra.

**43. Yeni şeirin manifesti:** Qiyabiçilər üçün metodik göstəriş /Mir Cəlal.- Bakı: ADU-nun nəşri, 1965.- 30 s.

## 1966

**44. Cəlil Məmmədquluzadə realizmi haqqında:** filoloji fakültəsinin tələbələri üçün dərs vəsaiti /Mir Cəlal.- Bakı: ADU-nun nəşri, 1966.- 70 s.

***Kitabın içindəkilər:*** Azərbaycan ədəbiyyatında realizmin müəyyənləşməsi və inkişafı haqqında; Cəlil Məmmədquluzadə realizmi.

## 1967

**45. Seçilmiş əsərləri:** 4 cilddə /Mir Cəlal; red. Y.Məmmədov.- Bakı: Azərnəşr, 1967.- Cild 1: Roman və hekayələr.- 519 s.

***Kitabın içindəkilər***: *Roman:* Dirilən adam. *Hekayələr:* Həkim Cinayətov; İlk günlər; İstifadə; Qaymaq; Sara; Mərkəz adamı; Təzə toyun nəzakət qaydaları; Göz; Bostan oğrusu; Dəzgah qızı; Dostumun qonaqlığı; Peşmançılıq; Ayaz; Kərpic məsələsi; Nanənin hünəri; Hikmətdən xəbər; Səfər; Gözün aydın; Badamın ləzzəti; Anket Anketov; Söyüd kölgəsində; İgid oğlan; Müalicə; Vətən oğlu; Vicdan əzabı; Dost görüşü; Kimya tələsir; Kəmtərovlar ailəsi; Məşriq; Gülgəz; Qonaqpərəst; İlhamın anası; Əməli saleh; Leyla; Susuzluq; Şərbət; Vətən yaraları; İki ananın bir oğlu; Mənim də haqqım var; Salam; Oğul; Döyüşçünün dedikləri; Titrək bir səs.

**46. Seçilmiş əsərləri:** 4 cilddə /Mir Cəlal; red. Y.Məmmədov.- Bakı: Azərnəşr, 1967.- Cild 2: Roman və hekayələr.- 499 s.

***Kitabın içindəkilər***: *Romanlar:* Bir gəncin manifesti; Açıq kitab. *Hekayələr:* Qardaş qanı; Boz adam; Atlı; Şahin və Sona; Mərcan nənə; Göylər adamı; Odlu mahnılar; Havalı adam; Axşam səfəri.

**1968**

**47. Gülüş bədii silah kimi:** dərs vəsaiti /Mir Cəlal; red. F.Hüseynov; Azərb. SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi.- Bakı: ADU, 1968.- 40 s.

Kitabda ədəbiyyatda böyük sənətkarların əlində kəsərli mənəvi silah olan tənqidi gülüşün formalarından və əhəmiyyətindən bəhs edilir.

**48. Seçilmiş əsərləri:** 4 cilddə /Mir Cəlal; red. G.Həsənzadə.- Bakı: Gənclik, 1968.- C. III: Roman və hekayələr.- 525 s.

***Kitabın içindəkilər: Roman:*** Yaşıdlar. ***Hekayələr:*** Mərcan nənə; Göylər adamı; Baldan əvvəl; Çupçik; Muştuluq; Xəbərətərsiz; Ər və arvad; Dissertasiya; Çıraqlar yandı; Silah qardaşları; Ailə; Aqil; Gənc usta; Yaradan əllər; Badam ağacları; Əskinasın tarixi; Əsgər oğlu; Gərək olar; Özündən naxoş; Anamın qeydləri; İclas qurusu; İki fermer; Hesab dostları; Ulduz; Qotazlı çəkmə; Plovdan sonra; Elçilər qayıtdı; Subaylıq fəlsəfəsi; İtpərəstlərin həyəcanı; Hava bürosu; Nazik mətləb; Lirika; Əl xətti; İki hakim; Mən də bakılıyam; Xəcalət; Sancaq fabrikində; Ürəkdə yazı; İnsanlıq fəlsəfəsi; Tövbələtmə; İlk hədiyyə; Qocaların uşaq söhbəti; O dünyada.

**49. Seçilmiş əsərləri:** 4 cilddə /Mir Cəlal; red. G.Həsənzadə.- Bakı: Gənclik, 1968.- C. IV: Roman və hekayələr.- 473 s.

***Kitabın içindəkilər:*** Roman: Yolumuz hayanadır. Hekayələr: Ərəb qardaş; Ömrün mənası; Gənc şairin ərizəsi; Səyyah xanım; Ləyaqət; Xarici naxoşluq; Gülbəsləyən qız; Ehtiram; Qəbul imtahanı; Naxış; Ərəb qızı; Ərik ağacı; Mən zaminəm; Təsadüf ya zərurət; Sözün yeri var; Şapalaq; Dil və əməl; Mənim vəfalı dostum; Heykəl ucalanda; İki qız, bir oğlan; Mənim "səmimi dostum"; Rola girib; Yad adam; Yalan yeriməz; Müdafiə vəkili; Ay İsmayıl, başa sal!; Qanadlı qızlar; Telefon dostum; O yana

baxın; Xoşbəxtlik barəsində; Müsəlmanlıq və texniki tərəqqi; Hərənin öz işi var; İmzasız hekayə; Məhəbbət yaxud qəlp pul; Maşında; Radio qabağında; Ədəbi söhbət; Niyə ovdan ayaq çəkdim; Xəzinədar; Düşünmək istəyirəm.

**1969**

**50. XX əsr Azərbaycan ədəbiyyatı:** Ali məktəblər üçün dərslik /Mir Cəlal, Firidun Hüseynov; elmi redaktor: B.Nəbiyev.- Bakı: Maarif, 1969.- 348 s.

***Kitabın içindəkilər*:** Müqəddimə; Cəlil Məmmədquluzadə; Mirzə Ələkbər Sabir; Nəriman Nərimanov; Əbdürrəhim bəy Haqverdiyev; Əli Nəzmi; Məmməd Səid Ordubadi; Əliqulu Qəmküsar; Mirzə Əli Möcüz; Bayraməli Abbaszadə; Süleyman Sani Axundov; Üzeyir Hacıbəyov; Abdulla Şaiq; Sultanməcid Qənizadə; Rəşid bəy Əfəndiyev; Yusif Vəzir Çəmənzəminli; İbrahim bəy Musabəyov; Marağalı Zeynalabdin; Məhəmməd Hadi; Hüseyn Cavid; Abbas Səhhət; Abdulla bəy Divanbəyoğlu; Firudin bəy Köçərli.

**1970**

**51. Bir gəncin manifesti:** roman /Mir Cəlal; red. T.Cəmilova.- Bakı: Gənclik, 1970.- 253 s.

Əsər Azərbaycanda baş verən vətəndaş müharibəsinə həsr olunmuşdur.

**1972**

**52. Ədəbiyyatşünaslığın əsasları:** Ali məktəblər üçün dərslik /Mir Cəlal, P.Xəlilov; red. F.Hüseynov.- Bakı: Maarif, 1972.- 280 s.

***Kitabın içindəkilər***: Müqəddimə; Surət varlığın bədii inikasıdır; Sənət və ədəbiyyatda tipiklik; Bədii ədəbiyyatın varlığı, idrak əhəmiyyəti; Ədəbiyyatın partiyalılığı və xəlqiliyi; Bədii ədəbiyyatın tərbiyəvi rolu; Klassik ədəbiyyatın əhəmiyyəti; Sənətkarın şəxsiyyəti və yaradıcılığı; Məzmun və forma vəhdəti; Bədii əsərin kompozisiyası; Bədii əsərin dili; Ədəbi növlər, lirik növ; Azərbaycan şeirinin vəznləri: Heca vəzni; Əruz vəzni; Sərbəst vəzn;

Azərbaycan şerinin janrları; Epik növ; Dramatik növ; Ədəbiyyatda gülüş. Satira və yumor; Ədəbi metod; Romantik və realist metod; Ədəbi məktəb: Klassizm; Sentimentalizm; Romantizm; Tənqidi realizm; Sosializm realizmi.

**53. Şəfəqdən qalxanlar:** povest və hekayələr /Mir Cəlal; red. S.Məmmədova.- Bakı: Gənclik, 1972.- 272 s.

***Kitabın içindəkilər*: *Povest:*** Dağlar dilləndi. ***Hekayələr:*** Şəfəqdən qalxanlar; İlk hədiyyə; Məşriq; Mühazirəçi yoldaşım; Günah kimdədir; Məsul işçinin dəftərindən; Ərəb qardaş; Fərəh məclisi; Nəfsi tox; Kənd uşaqları; Sevinc haqqında; Gülbəsləyən qız; Ehtiram; Ərik ağacı; Qəbul imtahanı; Aqil; Silah qardaşları; Ad axtaranlar; Xallı xanım; Gülzar haqqında; Nəzakət; Yaratmaq sevinci; Qanadlı qızlar; Liman oğlu; Səadət sarayları; Bağa getmişdim; Ad günü.

## 1973

**54. Klassiklər və müasirlər** /Mir Cəlal; redaktoru M.Müştaq.- Bakı: Azərnəşr, 1973.- 296 s.

***Kitabın içindəkilər*:** Bədii dilimiz haqqında; Nəsrimizin baniləri; Klassik nəsrimiz haqqında; Nizaminin müsbət surətləri haqqında; Əsrlərdən gələn dostluq səsi; Bədii ədəbiyyatın ictimai - tərbiyəvi əhəmiyyəti haqqında; Ədəbiyyatda qardaşlıq ideyaları; Ədəbi söhbətlər; Bədii nəsrimiz yeni mərhələdə; Yeni şeirin manifesti; Böyük realist; Azərbaycan yazıçıları A.S.Puşkin haqqında; Yeni realist ədəbiyyatımızın banisi; Böyük ədib; Məşhur ədib və dramaturq; Realist ədib; Sovet xalqının böyük ədibi; Din və mövhumata qarşı; Dahi söz ustası; Görkəmli ədib; Səməd Vurğunun əziz xatirəsi; Mehdi Hüseyn; Ədəbiyyatımızın gənc qüvvələri.

## 1974

**55. XX əsr Azərbaycan ədəbiyyatı**: Ali məktəblər üçün dərslik /Mir Cəlal, Firidun Hüseynov; elmi red. B.Nəbiyev.- 2-ci nəşri.- Bakı: Maarif, 1974.- 391 s.

***Kitabın içindəkilər*:** Müqəddimə; "Molla Nəsrəddin" jurnalı; Cəlil Məmmədquluzadə; Mirzə Ələkbər Sabir; Nəriman Nərima-

nov; Əbdürrəhim bəy Haqverdiyev; Əli Nəzmi; Məmməd Səid Ordubadi; Əliqulu Qəmküsar; Mirzə Əli Möcüz; Bayraməli Abbaszadə; Süleyman Sani Axundov; Üzeyir Hacıbəyov; Abdulla Şaiq; Sultanməcid Qənizadə; Rəşid bəy Əfəndiyev; Yusif Vəzir Çəmənzəminli; İbrahim bəy Musabəyov; Marağalı Zeynalabdin; Məhəmməd Hadi; Hüseyn Cavid; Abbas Səhhət; Abdulla bəy Divanbəyoğlu; Firidun bəy Köçərli.

**56. Silah qardaşları:** hekayələr /Mir Cəlal; red. R.Salamova.- Bakı: Gənclik, 1974.- 293 s.

***Kitabın içindəkilər*:** Mərcan nənə; Göylər adamı; Muştuluq; Xəbər-ətərsiz; Silah qardaşları; Aqil; Əsgər oğlu; Gənc usta; Yaradan əllər; Badam ağacları; Özündən naxoş; Hesab dostları; Ulduz; Plovdan sonra; Elçilər qayıtdı; Mən də bakılıyam; Ürəkdə yazı; İnsanlıq fəlsəfəsi; İlk hədiyyə; Şaftalı söhbəti; Qoltuq radiosu; Pul tapmışdım; Beş almışam; Gülbəsləyən qız; Ərik ağacı; Xallı xanım; Qanadlı qızlar; Qəbul imtahanı; Liman oğlu; Qocaların uşaq söhbəti; Maral; Varislər; Əziz kitabım; Ləyaqət; Söyüd kölgəsi; Gülgəz; Niyə ovdan ayaq çəkdim; Oxutmuram əl çəkin!; Xəzinədar; Gülmək lazımdır; Tövbələtmə; Yalan ayaq tutar, yeriməz.

**1978**

**57. Dağlar dilə gəldi:** hekayələr və povest /Mir Cəlal; red. S.Məmmədova.- Bakı: Gənclik, 1978.- 176 s.

***Kitabın içindəkilər*:** ***Hekayələr:*** Oğul; Səksən illiyə çağırmışdılar; Bakı səhərləri; Bir elçi kimi; Ərəb qardaş; Vətən köynəyi; Yalandan "beş"; Badam ağacları; Xahiş, tələb, məsləhət; Möhür və məhəbbət; Qəm qəmi gətirər, dəm dəmi. ***Povest:*** Dağlar dilə gəldi.

**58. Dirilən adam:** roman və hekayələr /Mir Cəlal; red. S.Hüseynova.- Bakı: Yazıçı, 1978.- 414 s.

***Kitabın içindəkilər*:** ***Roman:*** Dirilən adam. ***Hekayələr*:** Möhür və məhəbbət; Qəm qəmi gətirər, dəm dəmi; Məşriq; Günah kimdədir; Ərəb qardaş; Fərəh məclisi; Kənd "uşaqları"; Silah qardaşları; Hesab dostları; Ulduz; Plovdan sonra; Elçilər qayıtdı;

Mən də bakılıyam; Ürəkdə yazı; İnsanlıq fəlsəfəsi; İlk hədiyyə; Şaftalı söhbəti; Qoltuq radiosu; Pul tapmışdım; Beş almışam; Gülbəsləyən qız; Ərik ağacı; Xallı xanım; Qanadlı qızlar; Qəbul imtahanı; Liman oğlu; Qocaların uşaq söhbəti; Maral; Varislər; Əziz kitabım; Ləyaqət; Söyüd kölgəsi; Gülgəz; Niyə ovdan ayaq çəkdim; Oxutmuram əl çəkin!; Xəzinədar; Gülmək lazımdır; Tövbələtmə; Yalan ayaq tutar, yeriməz; Şəfəqdən qalxanlar; Babam kərpic kəsəndə; On bacı; Atan gəlsin; Dərsini yaz!; Düzəltmədi; Möhür; Mərd və namərd; Ürəkdən danışaq; Uşağın taleyi.

**1980**

**59. Bir gəncin manifesti:** roman /Mir Cəlal; red. M.Zeynalova.- Bakı: Gənclik, 1980.- 256 s.

Əsəri Azərbaycanda baş verən vətəndaş müharibəsinə həsr olunmuşdur.

**1982**

**60. XX əsr Azərbaycan ədəbiyyatı:** Ali məktəblər üçün dərslik /Mir Cəlal, Firidun Hüseynov; elmi red. B.Nəbiyev.- Yenidən işlənmiş 3-cü nəşri.- Bakı: Maarif, 1982.- 428 s.

***Kitabın içindəkilər***: Giriş; Bolşevik mətbuatı; İnqilabi-demokratik mətbuatı; "Molla Nəsrəddin" jurnalı; "Molla Nəsrəddin"in mətbuata təsiri; Uşaq mətbuatı; Burjua mətbuatı; Cəlil Məmmədquluzadə; Mirzə Ələkbər Sabir; Nəriman Nərimanov; Əbdürrəhim bəy Haqverdiyev; Əli Nəzmi; Məmməd Səid Ordubadi; Əliqulu Qəmküsar; Mirzə Əli Möcüz; Bayraməli Abbaszadə; Süleyman Sani Axundov; Üzeyir Hacıbəyov; Abdulla Şaiq; Sultanməcid Qənizadə; Rəşid bəy Əfəndiyev; Yusif Vəzir Çəmənzəminli; İbrahim bəy Musabəyov; Marağalı Zeynalabdin; Məhəmməd Hadi; Hüseyn Cavid; Abbas Səhhət; Abdulla bəy Divanbəyoğlu; Firidun bəy Köçərli.

**1984**

**61. Bir gəncin manifesti:** roman /Mir Cəlal; red. Ş.Kərimov; rəssamı N.Ələkbərov.- Bakı: Yazıçı, 1984.- 224 s.

**62. Ləyaqət:** hekayələr və povest /Mir Cəlal; red. S.Mahmudzadə.- Bakı: Yazıçı, 1984.- 360 s.

***Kitabın içindəkilər***: "Ötən günlər" hekayələri; Həyat hekayələri; Məktəb hekayələri; Günün hekayələri; Bizim ailə. ***Povest:*** Dağlar dilə gəldi.

**63. Yaşıdlar:** roman və hekayələr /Mir Cəlal; red. Ü.Kürçaylı.- Bakı: Azərnəşr, 1984.- 374 s.

***Kitabın içindəkilər***: ***Roman:*** Yaşıdlar. ***Hekayələr:*** Məşriq; Ərik ağacı; İstifadə; Anket Anketov; Əməli saleh.

## 1986

**64. Seçilmiş əsərləri:** Romanlar və hekayələr: 2 cilddə /Mir Cəlal; red. hey.: K.Talıbzadə, Ə.Ağayev, F.Hüseynov.- Bakı: Azərnəşr, 1986.- C. I.- 463 s.

***Kitabın içindəkilər***: ***Romanlar:*** Dirilən adam; Bir gəncin manifesti. ***Hekayələr:*** Həkim Cinayətov; Sara; Mərkəz adamı; Təzə toyun nəzakət qaydaları; Dərgah qızı; Kərpic məsələsi; Nənənin hünəri; Hikmətdən xəbər; Gözün aydın; Badamın ləzzəti; Söyüd kölgəsi; Kəmtərovlar ailəsi; Qonaqpərəst; Dost görüşü; Vicdan əzabı; Müalicə; İlhamın anası; Məşriq.

## 1987

**65. Seçilmiş əsərləri:** Roman və hekayələr: 2 cilddə /Mir Cəlal; red. hey.: K.Talıbzadə, Ə.Ağayev, F.Hüseynov.- Bakı: Azərnəşr, 1987.- C. II.- 456 s.

***Kitabın içindəkilər***: ***Roman:*** Açıq kitab; ***Hekayələr***: Yollar; Qardaş qanı; Şərbət; Odlu mahnılar; Atlı; Mərcan nənə; Baldan əvvəl; Çubçik; Vətən yaraları; Xəbər-ətərsiz; Ər və arvad; Dissertasiya; Silah qardaşları; İki ananın bir oğlu; Mənim də haqqım var; Salam; Badam ağacları; Gərək olar; Əsgər oğlu; Ulduz; Özündən naxoş; İclas qurusu; Hesab dostları; Plovdan sonra; Elçilər qayıtdı; Nazik mətləb; İnsanlıq fəlsəfəsi; Ərəb qızı; Naxış; İlk hədiyyə; O dünyada; Ərəb qardaş; Gənc şairin ərizəsi; Səyyah xanım; Xarici naxoşluq; Ərik ağacı; Gülbəsləyən qız; Dil və

əməl; Heykəl uçulanda; Rola girib; Yad adam; O yana baxan; Öyrəncəkli; İmansız hekayə; Ədəbi söhbət.

**1988**

**66. Ədəbiyyatşünaslığın əsasları:** Ali məktəblər üçün dərslik /Mir Cəlal, P.Xəlilov; elmi red. F.Hüseynov.- Yenidən işlənmiş və təkmilləşdirilmiş 2-ci nəşri.- Bakı: Maarif, 1988.- 279 s.

***Kitabın içindəkilər***: *I fəsil:* Ədəbiyyat haqqında ümumi məlumat: Surət varlığın bədii inikasıdır; Sənət və ədəbiyyatda tipiklik; Bədii ədəbiyyatın varlığı idrak əhəmiyyəti; Ədəbiyyatın partiyalılığı və xəlqiliyi; Bədii ədəbiyyatın tərbiyəvi əhəmiyyəti; Klassik ədəbi irsə münasibət; Sənətkarın şəxsiyyəti və yaradıcılığı. *II fəsil:* Ədəbi əsərlər haqqında: Bədii əsərin məzmun və forma vəhdəti; Bədii əsərin kompozisiyası; Bədii əsərin dili. *III fəsil:* Ədəbi növlər və janrlar: Lirik növ; Şeir vəznləri; Heca vəzni; Əruz vəzni; Sərbəst vəzn; Lirik növün janrları; Epik növ; Epik növün janrları; Dramatik növün janrları; Ədəbiyyatda gülüş; Satira və yumor.

**1994**

**67. Füzuli sənətkarlığı** /Mir Cəlal.- II nəşri.- Bakı: Maarif, 1994.- 252 s.

Kitabda Məhəmməd Füzulinin sənət və sənətkar haqqında fikirləri, şairin üslubu, istifadə etdiyi ədəbi priyomlar, bədii təsvir vasitələri, şeir dili və s. kimi sənətkarlıq xüsusiyyətləri geniş şərh olunur.

***Kitabın içindəkilər***: Başlanğıc; Füzuli şeir haqqında; Qəzəllər haqqında; Bədii dil xüsusiyyətləri; Mənzərələr; Şeir mədəniyyəti – texnika; Bədii məntiq; Lirika; Bədii nəsri: “Rind və Zahid”; Nizami və Füzuli; Ölməz məhəbbət dastanı; Füzulidə alleqoriya; Böyük mənəvi müasirimiz.

**2004**

**68. Azərbaycanda ədəbi məktəblər (1905-1917)** /Mir Cəlal; elmi red. T.Mütəllimov.- Bakı: Ziya-Nurlan NPM, 2004.- 390 s.

***Kitabın içindəkilər***: Ustad yadigarı; Müqəddimə. 1.***İctimai-siyasi həyat:*** Mədəni hərəkat. 2.***Realizm ədəbi məktəbi***: Cəlil Məmmədquluzadə; Əbdürrəhim bəy Haqverdiyev; Mirzə Ələkbər Sabir; Əli Nəzmi; Məmməd Səid Ordubadi; Əliqulu Qəmküsar; Mirzə Əli Möcüz; Firidun bəy Köçərli; Mirzə Fətəli Axundovun farsca yazan şagirdləri. 3.***Romantizm ədəbi məktəbi***: Məhəmməd Hadi; Abbas Səhhət; Əbdülxalıq Cənnəti; Abdulla bəy Divanbəyoğlu; Səid Səlmasi; Səməd Mənsur Kazımov. 4.***Maarifçi-didaktik yazıçılar***: Süleyman Sani Axundov; Abdulla Şaiq Talıbzadə; İbrahim bəy Musabəyov; Məhəmməd Qarayev. 5.***Xırda məişət dramları***: Mirzə Məhəmməd Axundov (Hatif); Rəşid bəy Əfəndiyev; Mir Mahmud Kazımovski; Əhməd Qəmərli Məlikov; Ədəbiyyat.

## 2005

**69. Ədəbiyyatşünaslığın əsasları:** Ali məktəblər üçün dərslik /Mir Cəlal, P.Xəlilov; elmi red. F.Hüseynov.- Təkmilləşdirilmiş 3-cü nəşr.- Bakı: Çaşıoğlu, 2005.- 312 s.

***Kitabın içindəkilər:*** *I fəsil:* Ədəbiyyat haqqında ümumi məlumat: Surət varlığın bədii inikasıdır; Bədii ədəbiyyatda millilik, xəlqilik və türklük; Sənət və ədəbiyyatda tipiklik; Bəddi ədəbiyyatın varlığı idrak əhəmiyyəti; Bədii ədəbiyyatın tərbiyəvi əhəmiyyəti; Sənətkarlığın şəxsiyyəti və yaradıcılığı. *II fəsil:* Ədəbi əsərlər haqqında: Bədii əsərin məzmun və forma vəhdəti; Forma haqqında anlayış. Məzmunca formanın qarşılıqlı münasibəti; Mövzunun tarixliliyi və aktuallığı; Bədii əsərin kompozisiyası; Bədii əsərin dili. *III fəsil:* Ədəbi növlər və janrlar: Lirik növ; Şeir vəznləri; Heca vəzni; Əruz vəzni; Sərbəst vəzn; Lirik növün janrları; Epik növün janrları; Dramatik növ; Dramatik növün janrları [Hər iki bölmənin müəllifi T.Mütəllimovdur]. Ədəbiyyatda gülüş. Satira və yumor.

**70. Seçilmiş əsərləri.** Hekayələr və roman /Mir Cəlal; tərt. ed. Ə.Paşayeva; ön söz müəl. və red. N.Həsənzadə.- Bakı: Çaşıoğlu, 2005.- 479 s.

***Kitabın içindəkilər***: ***Hekayələr:*** Təzə toyun nəzakət qaydaları; Bostan oğrusu; Kəmtərovlar ailəsi; Anket Anketov; Muştuluq; Aqil; Gərək olar; Özündən naxoş; İclas qurusu; Plovdan sonra; Elçilər qayıtdı; Nazik mətləb; Subaylıq fəlsəfəsi; İnsanlıq fəlsəfəsi; Vicdan mühakiməsi; Ərik ağacı; Gülbəsləyən qız; Ehtiram; Şaftalı söhbəti; Məsul işçinin dəftərçəsindən; Günah kimdədir; Sevinc haqqında; Möhür; Düzəltmədi; Atan gəlsin; Kənd "uşaqları". ***Romanlar:*** Dirilən adam; Bir gəncin manifesti.

**71. Seçilmiş əsərləri** /Mir Cəlal; tərt. ed. və ön söz. müəl. Y.İsmayılov.- Bakı: Şərq-Qərb, 2005.- 384 s. (Müasir Azərbaycan ədəbiyyatı).

***Kitabın içindəkilər***: ***Hekayələr***: Həkim Cinayətov; İstifadə; Təzə toyun nəzakət qaydaları; Bostan oğrusu; Dostumun qonaqlığı; Söyüd kölgəsi; Müalicə; Kəmtərovlar ailəsi; Susuzluq; Vətən yaraları; Leyla; Ər və arvad; İki ananın bir oğlu; Badam ağacları; Gərək olar; Özündən naxoş; İclas qurusu; Plovdan sonra; Elçilər qayıtdı; Nazik mətləb; İnsanlıq fəlsəfəsi; Xarici naxoşluq; Ehtiram; Heykəl uçulanda; Ay İsmayıl, başa sal!; Niyə ovdan ayaq çəkdim. ***Roman:*** Açıq kitab.

## 2007

**72. Füzuli sənətkarlığı**: monoqrafiya /Mir Cəlal; seriyanın red. və naşir E.Z.Qaraxanlı; məsləhətçi A.Əmrahoğlu; red. F.Mustafa; Mahmud Karşqarı Fondunun nəşri.- Bakı: Kaşqari Fondu, 2007.-357 s.

***Kitabın içindəkilər***: Müəllifdən; Başlanğıc; Füzuli şeir haqqında; Qəzəllər haqqında; Bədii dil xüsusiyyətləri; Mənzərələr; Şeir mədəniyyəti – texnika; Bədii məntiq; Lirika; Bədii nəsri; "Rind və Zahid"; Nizami və Füzuli; Ölməz məhəbbət dastanı; Füzulidə alleqoriya; Böyük mənəvi müasirimiz.

## 2008

**73. Seçilmiş əsərləri:** 3 cilddə /Mir Cəlal; tərt. ed. və red. N.Paşayeva, T.Mütəllimov; rəssam. E.Cabarov; tərc. A.Tomson; Regionların İnkişafı İctimai Birliyi.- Bakı: Çaşıoğlu, 2008.- K.I.-

438, [6] s. Görkəmli Azərbaycan yazıçısı Mir Cəlalın 100 illiyinə həsr olunur.

***Kitabın içindəkilər***: ***Roman:*** Yazıçı və zaman; Dirilən adam; ***Hekayələr:*** Həkim Cinayətov; Mərkəz adamı; Sara; Təzə toyun nəzakət qaydaları; Beş almışam; Göz; Bostan oğrusu; Ayaz; Dostumun qonaqlığı; Söyüd kölgəsi; Badamın ləzzəti; Kərpic məsələsi; Hikmətdən xəbər; Gözün aydın; Vətən oğlu; Dost görüşü; Kəmtərovlar ailəsi; Qonaqpərəst; Anket Anketov; Vətən yaraları; Leyla; Muştuluq; Badam ağacları.

**74. Seçilmiş əsərləri:** 3 cilddə /Mir Cəlal; tərt. ed. və red. N.Paşayeva, T.Mütəllimov; rəssam E.Cabarov; tərc. A.Tomson; Regionların İnkişafı İctimai Birliyi.- Bakı: Çaşıoğlu, 2008.- K.II.- 462, [6] s. Görkəmli Azərbaycan yazıçısı Mir Cəlalın 100 illiyinə həsr olunur.

***Kitabın içindəkilər***: ***Roman:*** Bir gəncin manifesti; ***Hekayələr:*** Oğul; Aqil; Gərək olar; Özündən naxoş; İclas qurusu; Plovdan sonra; Elçilər qayıtdı; Nazik mətləb; Subaylıq fəlsəfəsi; İnsanlıq fəlsəfəsi; Ürəkdə yazı; Qocaların uşaq söhbəti; Xarici naxoşluq; Vicdan mühakiməsi.

**75. Seçilmiş əsərləri:** 3 cilddə /tərt.-red.: N.Paşayeva, T.Mütəllimov; Regionların İnkişafı İctimai Birliyi.- Bakı: Çaşıoğlu, 2008.- K.III.- 450 s.- Görkəmli Azərbaycan yazıçısı Mir Cəlalın 100 illiyinə həsr olunur.

***Kitabın içindəkilər: Roman:*** Yolumuz hayanadır; ***Hekayələr*****:** Ərik ağacı; Gülbəsləyən qız; Ehtiram; Günah kimdədir; Sevinc haqqında; Düzəlmədi; Möhür; Kənd "uşağı"; Şaftalı söhbəti; Məsul işçinin dəftərindən; Atan gəlsin; Dərsimi yaz; Möhür və məhəbbət.

**2013**

**76. Seçilmiş əsərləri:** hekayələr, oçerklər, şeirlər, tərcümələr, xatirələr: 5 cilddə /Mir Cəlal; tərt. ed.: N.Paşayeva, T.Mütəllimov; red. Ş.Axundov.- Bakı: Adiloğlu, 2013.- C. I: Hekayələr.- 440, [4] s., [6] v. şək.: portr.

***Kitabın içindəkilər:*** Nərgiz Paşayeva. Müasir nəsrimizin

hekayə ustadı; Mirzə; Həkim; Hacının xəyalı; İlk günlər; Səfər; Badamın ləzzəti; "Myaxqiy"; İstifadə; Mərkəz adamı; Qaymaq; Sara; Təzə toyun nəzakət qaydaları; "Kim"in andı; Letun; Göz; "Matişgə"; Kartoşka məsələsi; Bostan oğrusu; Sınaq günü; Dostumun qonaqlığı (təsadüf); Ayaz; Yanlış barmaqlar; Pərzad; Kağızlar aləmi; Kərpic məsələsi; Nanənin hünəri; Gözün aydın; Hikmətdən xəbər; Anket Anketov; Söyüd kölgəsi; İgid oğlan; Vətən oğlu; Hilal dayı; Dost görüşü; Vicdan əzabı; Müalicə; Möhlətovun tərcümeyi-halı; Kimya tələsir; Mənim parlamentim; Kəmtərovlar ailəsi; Qonaqpərəst; Qəmbərqulu; Əməli saleh; Şəxsi məsələ; Mərifət dərsi; Tamaşa; İlhamın anası.

**77. Seçilmiş əsərləri:** hekayələr, felyetonlar, şeirlər, oçerklər, tərcümələr, xatirələr: 5 cilddə /Mir Cəlal; tərt. ed.: N.Paşayeva, T.Mütəllimov; red. Ş.Axundov; rəssam N.Süleymanoğlu.- Bakı: Adiloğlu, 2013.- C. II: Hekayələr.- 440, [4] s., [8] v. şək.: portr.

***Kitabın içindəkilər:*** Anaların üsyanı; Ananın köynəyi; Gülgəz; Məşriq; Boz adam; Fitnə; Ata; Qardaş qanı; Qorxu; Susuzluq; Vuran əllər; Yol açıqdır; Yollar; Şahin və Sona; Şərbət; Ananın yarışı; Havalı adam; Mərcan nənə; Ana; Arxa əsgəri; Atlı; Baldan əvvəl; Çupçik; Çəkmə; Göylər adamı; Odlu mahnılar; Ölümdən betər; Axşam səfəri; Vətən yaraları; Xəbərətərsiz; Leyla; Muştuluq; Titrək bir səs; Ər və arvad; Barxudar; Çıraqlar yandı; Dissertasiya; Ailə; Həpəndovun məqaləsi; İki ananın bir oğlu; Oğul; Millətin "müalicəsi"; İki səs; Qələmdən; Silah qardaşları; Mənim də haqqım var; Salam; Gözətçi; Aqil; İmtahan; İki rəssam; İftixar; İlk vəsiqə; Gənc usta; Yaradan əllər; Çin qızı; Gilasın sevinci; Əsgər oğlu; Mərdimazar; Qələm; Əskinasın tarixi; Buz maşını; Gərək olar; İclas qurusu; Özgə uşağı; Özündən naxoş; Ulduz.

**78. Seçilmiş əsərləri:** hekayələr, felyetonlar, şeirlər, oçerklər, tərcümələr, xatirələr: 5 cilddə /Mir Cəlal; tərt. ed.: N.Paşayeva, T.Mütəllimov; red. Ş.Axundov; rəssam N.Süleymanoğlu Hekayələr.- Bakı: Adiloğlu, 2013.- C. III.- 452, [4] s., [7] v. şək.: portr.

***Kitabın içindəkilər**:* Badam ağacları; Yuxu və külək; Anamın qeydləri; İki fermer; Hesab dostları; Plovdan sonra; Qotazlı

çəkmə; Elçilər qayıtdı; Oğul anası; Subaylıq fəlsəfəsi; Qanlı torpaq; Döyüşçünün dedikləri; İtpərəstlərin həyəcanı; Hava bürosu; Lirika; Əl xətti; İki hakim; Nazik mətləb; Mən də bakılıyam; Ərəb qızı; İnsanlıq fəlsəfəsi; Naxış; Ürəkdə yazı; Xəcalət; Sancaq fabrikində; İlk hədiyyə; Qocaların uşaq söhbəti; Qəbul imtahanı; Neçə cür salam var?; O dünyada; Pioner maşını; Tövbələtmə; Vicdan mühakiməsi; Dağların qəlbi; Zəhmət, ağıl, bəxt; Havapərəstlər; Kəhərin son günləri; Gözəl barəsində; Gənc şairin ərizəsi; Xarici naxoşluq; Ərəb qardaş; Ləyaqət; Ömrün mənası; Səyyah xanım; Ərik ağacı; Gülbəsləyən qız; Ehtiram; Mən zaminəm; Mənim vəfalı dostum; Şapalaq; Dil və əməl; Mənim "səmimi dostum"; Rola girib; Sözün yeri var; Heykəl uçulanda; İki qız, bir oğlan; Yad adam; Telefon dostum; Radio qabağında; El xadimləri; Müdafiə vəkili; O yana baxan; Pillələr; Məni görmürsünüz; Bacı-qardaş; Az danışmağın faydası; Mənim dilmancım; Düz adam; Öyrəncəkli; Paho, paho-o... Vay!; "İngilis" dili; Ədəb söhbəti; Xəzinədar; Maşında.

**79. Seçilmiş əsərləri:** hekayələr, felyetonlar, şeirlər, oçerklər, tərcümələr, xatirələr: 5 cilddə /Mir Cəlal; tərt. ed.: N.Paşayeva, T.Mütəllimov; red. Ş.Axundov; rəssam N.Süleymanoğlu.- Bakı: Adiloğlu, 2013.- C. IV.- 462, [6] s., [7] v. şək.: portr.

***Kitabın içindəkilər*:** Ay İsmayıl, başa sal; Məhəbbət, yaxud qəlp pul; Mən də bir elçi kimi; Turşuqeyrət; İmzasız hekayə; Niyə ovdan ayaq çəkdim; Mən deyən; Mən necə həkimlik öyrəndim; Qulluqçu haqqında; Şirin söhbət; Ana məsləhəti; Düşünmək istəyirəm; Gör fələk nə sayır; Biri var idi, ikisi yox; Xoşbəxtlik barəsində; Hərənin öz işi var; Şərait yoxdur; Yaylaq məsələsi; Müsəlmanlıq və texniki tərəqqi; Əmzik; Yamanlığa yaxşılıq; Mənim utancaq tələbəm; Qanadlı qızlar; Ad günü; Fərəh məclisi; Liman oğlu; Abadlıq; Yaratmaq sevinci; Bağa getmişdim; Bizim quşlar; Bizim mühəndis; İki filosof; Daha bir yadigar; Məsul işçinin dəftərindən; Səadət sarayları; Ürəkdən danışaq; Babam kərpic kəsəndə; Şaftalı söhbəti; Beş almışam!; Düzəlmədi; Pul tapmışdım; Xatalı adam; Sevinc haqqında; Şəfəqdən qalxanlar; Mühazirəçi yoldaşım; Qoltuq radiosu; Yaxşı nədir, pis nədir;

